QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 115 (5587) 21 **iyun** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# TANAP Avrasiya məkanı üçün xüsusi önəm daşıyan layihədir




Səh 2


**Azərbaycan-Vyetnam əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub**



3

**“Qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində müəyyən irəliləyişlər əldə olunub”**



3

**“Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in açılışı olub**



8

**Milli Qurtuluş Günü ilə əlaqədar Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının “Zəfərə doğru” bayraq yürüşü olub**



5

**Zakir Həsənov: “Azərbaycan Ordusu Laçına gedən yola nəzarət edir”**



7

**Rəsmi İrəvanın siyasi iflası: ermənilər Azərbaycanı xilaskar görürlər**



6

13

**Turqut Qəmbərlə Emin Milli təhqir edildi, Xədicə İsmayıl da hədəfə düşdü**



14

**On beşinci əsrdə tərtib olunmuş lüğət Azərbaycana gətirilib**



16

**Ronaldodan Avropada yeni rekord!**



# TANAP Avrasiya məkanı üçün xüsusi önəm daşıyan layihədir

## *İlham Əliyev: “TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq”*

***“Cənub Qaz Dəhlizi”nin tərkib hissəsi olan TANAP-ın istifadəyə verilməsi mühüm tarixi hadisədir. TANAP-ın işə düşməsi ilə Azərbaycan təkcə neft diyarı deyil, həm də qaz ixrac edən ölkə olduğunu bir daha təsdiqlədi. TANAP-ın uğuru Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən “Cənub Qaz Dəhlizi”nin, bütövlükdə müvəffəqiyyətlə başa çatacağına bir zəmanətdir. TANAP Azərbaycanın və Türkiyənin - hər iki ölkənin dövlət başçılarının birgə səyi nəticəsində gerçəkliyə çevrilən unikal layihədir. Ona görə də, Azərbaycan-Türkiyə birliyini və qardaşlığını bir daha nümayiş etdirir, eləcə də, hər iki ölkənin iqtisadi gücünü göstərir. Lakin TANAP təkcə iki ölkə üçün, region üçün deyil, həm də bütün Avrasiya məkanı üçün önəm daşıyan layihədir.***




Məlum olduğu kimi, “Cənub Qaz Dəhlizi” 7 ölkənin, layihənin ayrı-ayrı seqmentlərində tərəfdaşlıq edən çoxsaylı şirkətlərin sıx əməkdaşlığı nəticəsində gerçəkləşir. Dəhlizlə nəql olunacaq təbii yanacağın Avropanın 9 iri şirkəti tərəfindən alınması nəzərdə tutulub. TANAP, məhz belə bir önəmli dəhlizin ən böyük hissəsidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışlarının birində TANAP-ı “Cənub Qaz Dəhlizi”nin onurğa sütunu adlandırmış və onun vaxtında istifadəyə verilməsinin vacib olduğunu vurğulamışdı. İndi bu, artıq reallığa çevrilib.




Bu il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP-ın istifadəyə verilməsi münasibətilə keçirilən təntənəli mərasimdəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev deyib: “TANAP-ın istifadəyə verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür”.

Azərbaycan qazının TANAP-ın vasitəsilə Türkiyədən keçəcək. Avropanın bu qaza böyük ehtiyacı var. Ümumiyyətlə, dünyada qaza olan tələbat getdikcə artır. Müxtəlif neft regionlarında istismar olunan qaz yataqlarının ehtiyatları getdikcə azalır. Yeni yataqlar isə, heç də tez-tez kəşf olunmur. Bu baxımdan, Xəzərin Azərbaycan sektorundakı zəngin “Şahdəniz” qazkondensat yatağının ehtiyatları daha mühüm əhəmiyyət kəsb edir. Bu, 1,2 trilyon kubmetr mavi yanacaq sərvəti olan möhtəşəm yataqdır. Buradan çıxarılan qazı Avropaya, məhz “Cənub Qaz Dəhlizi” çatdıracaq.

Azərbaycan qazını Türkiyənin ərazisində nəql edəcək TANAP üzrə Hökumətlərarası Sazişi 2012-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt baş naziri, indi Prezidenti olan Rəcəb Tayyib Ərdoğan İstanbulda imzalamışlar. Layihənin həyata keçirilməsi üçün verilən start uğurla gerçəkləşdirilən mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik işləri ilə davam etdirilərək, TANAP-ın zəngin salnaməsinin əsasını qoymuşdur. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda TANAP-ın təməlqoyma mərasimi keçirilmişdir. Mərasimdə üç ölkənin rəhbərləri - Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili iştirak etmişdilər.

TANAP Azərbaycan qazını Gürcüstan-Türkiyə sərhədində Cənubi Qafqaz Boru Kəmərindən qəbul edir. CQBK “Cənub Qaz Dəhlizi”ni yaradan üç kəmərdən birincisidir, Azərbaycanın ərazisində 443, Gürcüstanda 248 kilometr məsafə qət edir. CQBK-nın yolunu Türkiyənin ərazisində 1800 kilometrdən çox məsafə boyu TANAP davam etdirir.

TANAP Türkiyənin 20 vilayətindən, o cümlədən Ərdəhan, Qars, Ərzurum, Gümüşhanə və Ərzincan vilayətlərindən keçir. Marşrut boyu kəmər Türkiyənin 67 rayonunu və 600 kəndini arxada qoyub, Türkiyə-Yunanıstan sərhədinə çatır və buradakı Kipoi məntəqəsində TAP-a (Transadriatik Qaz Boru Kəməri) qovuşur. Bir tərəfdən CQBK-ya, digər tərəfdən TAP-a bağlandığı üçün TANAP-ı “Cənub Qaz Dəhlizi”nin “birləşdirici həlqəsi” də adlandırırlar.

TANAP-ın əhəmiyyəti təkcə Türkiyədəki istehlakçılara mavi yanacaq çatdırmaqla bitmir. Kəmərin Türkiyədən keçirərək Avropaya ixrac etdiyi qazın 9 iri şirkət tərəfindən alınması nəzərdə tutulub. Bunlar ingilis-holland “Shell” şirkəti, Bolqarıstanın “Bulgargaz”, Yunanıstanın DEPA, Almaniyanın “Uniper”, Fransanın “Engie”, İtaliyanın “Hera Trading”, “Edison” və “Enel”, İsveçrənin AXPO şirkətləridir. 3500 kilometrlik “Cənub Qaz Dəhlizi”nin 878 kilometri TAP-ın payına düşür. Dəhlizin həmin hissəsinin 550 kilometri Yunanıstandan, 215 kilometri Albaniyadan, 105 kilometri Adriatik dənizinin altından keçəcək, sonuncu 8 kilometri İtaliya ərazisində quruda yerləşəcək. Hazırda TAP-ın çəkilişinin 72 faizi icra olunub və 2020-ci ildə bu boru xətti TANAP-ın nəql etdiyi mavi yanacağı qəbul edəcək. Beləliklə, hazırda “Cənub Qaz Dəhlizi”ndə 7 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Albaniya iştirak edir. Daha üç Balkan ölkəsinin - Xorvatiya, Monteneqro, Bosniya və Herseqovinanın da növbəti mərhələlərdə layihəyə qoşulacaqları istisna deyil. “Cənub Qaz Dəhlizi” gələcəkdə Azərbaycan qazının Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün də böyük imkanlar yaradır.

TANAP-ın açılışında Prezident İlham Əliyev bununla bağlı demişdir: “TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP 7 ölkəni, bir çox şirkətləri birləşdirir. “Cənub Qaz Dəhlizi”nin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir”.

Azərbaycan qazının bir çox ölkələrdəki istehlakçılar üçün çox gərəkli olduğunu Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç də vurğulamış, bu baxımdan, “Cənub Qaz Dəhlizi”nin ən uzun hissəsi olan TANAP-ın istismara verilməsini mühüm mərhələ kimi dəyərləndirmişdir: “Xəzər təbii qazı artıq kommersiya əsasında Türkiyə bazarına çatdırılır... Bu gün biz niyyətləri reallığa çeviririk və Enerji İttifaqı ilə daha bir nəzərəçarpacaq nəticəni veririk. “Cənub Qaz Dəhlizi” enerji təchizatçıları və marşrutlarını şaxələndirməklə, Cənub-Şərqi Avropa və Cənubi İtaliya kimi ən həssas bölgələr də daxil olmaqla, Avropa İttifaqının enerji təhlükəsizliyi baxımından, strateji əhəmiyyət kəsb edir. Biz hamımız Xəzər regionu və Avropa İttifaqı bazarının arasındakı bu “körpü”dən yararlana bilərik. Bu, uğur qazanmaq üçün birgə maraq doğurur”.

***“Səs” Analitik Qrupu***

# Əli Əhmədov: “Qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində müəyyən irəliləyişlər əldə olunub”

*Azərbaycanda qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində müəyyən irəliləyişlər əldə edilib. Bu barədə iyunun 20-də Nazirlər Kabinetində keçirilən Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının beşinci iclasında Baş nazirin müavini, komissiyanın sədri Əli Əhmədov deyib.*



İclasda “Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nda əks olunmuş tapşırıqların icrası məqsədilə həyata keçirilmiş tədbirlər, əldə edilmiş nəticələr və qarşıda duran vəzifələr müzakirə olunub.

Əli Əhmədov bildirib ki, ötən müddətdə ölkədə qeyri-rəsmi məşğulluğun qarşısının alınması istiqamətində, o cümlədən, işəgötürənlər və işləyənlər arasında münasibətlərdə müəyyən irəliləyişlər əldə edilib. Bu ilin beş ayı ərzində Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində (ƏMBEİS) artım 43 min 434 əmək müqaviləsi təşkil edib ki, bunlardan 9 min 560-ı Naxçıvan Muxtar Respublikasındadır. Keçən ilin eyni dövründə isə bu göstərici 21 min 506 müqavilə təşkil edib. Beləliklə, cari ildə əmək müqavilələri üzrə artım tempinin müsbət saldosunun 2 dəfədən çox artması müşahidə olunub.

Baş nazirin müavini qeyd edib ki, 2017-ci ilin əvvəlinə 1 milyon 265 mindən çox müqavilə, ötən il iyunun 1-dək 1 milyon 287 mindən artıq müqavilə bağlanıb. Bu il yanvarın 1-i vəziyyətinə isə 1 milyon 310 mindən çox müqavilə, iyunun 1-dək 1 milyon 354 mindən çox müqavilə bağlanıb. Bağlanan əmək müqavilələri üzrə ən çox artım topdan və pərakəndə satış, eləcə də, tikinti sahələrində olub. Bu il mayın 1-nə ölkədə muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz artaraq, 1 milyon 538,2 min nəfərə çatıb.

Komissiyanın sədri bildirib ki, komissiya qarşısında 36 bənd üzrə işlərin yerinə yetirilməsi vəzifə kimi qoyulub. Bu tədbirlərdən 12-si tam, 8-i isə qismən icra edilib. Digər vəzifələrin icrası üzrə işlər davam etdirilir.

Sonra “Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”ndan irəli gələn tapşırıqların icrası ilə bağlı komissiya yanında yaradılan işçi qruplarının rəhbərlərinin məruzələri dinlənilib.

İclasa yekun vuran Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov deyib ki, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması istiqamətində görülən işlərlə əlaqədar, mütəmadi olaraq, Azərbaycan Respublikasının Prezidentinə məlumat veriləcək.



# Azərbaycan-Vyetnam əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov iyunun 20-də Vyetnamın sənaye və ticarət naziri, iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Tran Tuan Anhın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Vyetnam arasında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib. Bunun ölkələrimizin əlaqələrinin yüksək səviyyədə olduğunu göstərdiyini vurğulayan Novruz Məmmədov bildirib ki, Azərbaycan ilə Vyetnam arasında bütün sahələrdə əməkdaşlığın inkişafına önəm verilir.

Prezident İlham Əliyevin Vyetnama səfərini xatırladan Baş nazir vurğulayıb ki, həmin səfər zamanı Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak edərkən energetika sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub, bu sahənin inkişafı üçün yaxşı imkanların mövcudluğu vurğulanıb. Son illər Azərbaycan ilə Vyetnam arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələrin inkişaf etdiyi diqqətə çatdırılıb.

Vyetnamın sənaye və ticarət naziri, iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Tran Tuan Anhın Azərbaycana səfərinin böyük əhəmiyyət daşıdığını bildirən Novruz Məmmədov qeyd edib ki, bu səfər ölkələrimiz arasında münasibətlərin inkişafına öz töhfəsini verəcək.

Bakıda keçirilən Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının ikinci iclası barədə Baş nazirə ətraflı məlumat verən Tran Tuan Anh regionun lider dövləti olan Azərbaycan Respublikası ilə ikitərəfli əlaqələrin ölkəsi üçün maraq doğurduğunu vurğulayıb. Qonaq kənd təsərrüfatı, ərzaq məhsulları, elm, təhsil, energetika, idman, investisiya qoyuluşu, turizm və digər sahələrdə əməkdaşlığın vacibliyini qeyd edib.

Görüşdə qarşılıqlı əməkdaşlığın perspektivinə dair tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş keçirilib



İyunun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri və “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı - 2018”in açılış tədbirində iştirak etmək üçün muxtar respublikaya gələn xarici ölkələrin nümayəndələri ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri qonaqları Azərbaycanın müqəddəs torpağı Naxçıvan şəhərində salamlayıb, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsində təşəbbüsü olanlara təşəkkür edib. Qeyd olunub ki, 2009-cu ildən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və dəstəyi ilə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı işlər uğurla həyata keçirilib. Ötən dövrdə türk-islam mədəniyyəti abidələri bərpa olunub, İslam dini və onun dəyərləri ilə bağlı kitablar nəşr olunub. Həmçinin “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan-2018” loqotipi və suvenirlər hazırlanıb, üzərində loqotip əks olunmuş döş nişanları, zərflər, poçt markaları buraxılıb.

Nuh peyğəmbərin vətəni olan Naxçıvanın qədim tarixindən, burada dini dəyərlərin qorunub yaşadılması sahəsində görülən işlərdən və türk-islam mədəniyyətinin inkişafından danışan Ali Məclisin Sədri Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsinin əhəmiyyətini vurğulayıb, “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan-2018” tədbirlərinin uğurla keçəcəyinə əminliyini bildirib.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edib, İslam Mədəniyyətinin Paytaxtı seçilmiş şəhərlər və bu layihə üzrə görülən işlər barədə danışıb. Baş direktor bildirib ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi düzgün qərar idi. Çünki Azərbaycanın bu qədim diyarında zəngin tarixi-mədəni irs vardır. Eyni zamanda, Naxçıvan şəhərinin müasir inkişafı, təmizliyi, havası və İslam dəyərlərinin yaşadılması sahəsində görülən işlər məmnunluq doğurur.

Naxçıvanın malik olduğu zəngin tarixi-mədəni irsin və burada İslam dəyərlərinin yaşadılması sahəsində görülən işlərin təbliğ olunması və tanıdılmasının vacibliyinin vurğulayan Əbdüləziz Osman əl-Tuveycri İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının bundan sonra da Naxçıvanla əməkdaşlığa mühüm əhəmiyyət verəcəyini bildirib, fikirlərini “Yaşasın Azərbaycan və onun İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan şəhəri, yaşasın İslam Həmrəyliyi” sözləri ilə tamamlayıb.

Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı - 2018”in açılış tədbirində İslam ölkələrinin yüksək səviyyəli nümayəndələrlə təmsil olunduğunu və tədbirə böyük marağın olduğunu bildirib. Əbdüləziz Osman əl-Tuveycri Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə bağlı İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı tərəfindən hazırlanmış rəmzi loqonu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova təqdim edib. Sonda xatirə fotosu çəkilib.

## George Leuka: Naxçıvan Muxtar Respublikasının böyük iqtisadi potensialı var



Naxçıvanda səfərdə olarkən qədim diyarın böyük iqtisadi potensiala malik olduğuna şahidlik etdim. Moldova Respublikası ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında iqtisadi, mədəni və digər sahələrdə ikitərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bu sözləri AZƏRTAC-a müsahibəsində Moldovanın Azərbaycandakı səfiri George Leuka deyib.

“Muxtar respublikaya ilk dəfədir ki, səfər edirəm. Naxçıvanda yüksək səviyyəli görüşlər keçirdim. Bu görüşlərdə ikitərəfli əməkdaşlığı inkişaf etdirmək haqqında müzakirələr apardıq”, - deyən George Leuka əlaqələrin inkişafı üçün geniş imkanlar olduğunu qeyd edib. O, muxtar respublikanın turizm potensialına da diqqət çəkərək Naxçıvanın gözəl təbiətə malik olduğunu vurğulayıb, burada müasir infrastrukturun yaradıldığını qeyd edib.

# Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib



***İyunun 20-də Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Beynəlxalq Muğam Mərkəzində təşkil edilən tədbirin iştirakçıları əvvəlcə qaçqın və məcburi köçkünlərin həyatından bəhs edən fotosərgiyə baxıblar. Sonra mövzu ilə bağlı tamaşa nümayiş olunub.***





Açılış nitqi ilə çıxış edən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Furio De Angelis hazırda dünyada mövcud olan qaçqın və məcburi köçkün probleminə toxunaraq bildirib ki, təmsil etdiyi qurum könüllü yardımlar vasitəsilə bütün dünyada qaçqınlara kömək göstərir. Qeyd edib ki, bu il dünyada öz yurd-yuvalarından didərgin düşən insanların sayı ən yüksək həddə çatıb. Bu, bizi problemi yaradan səbəblər barədə dərindən düşünməyə vadar edir. Məsələnin həlli üçün bütün dövlətlər və aidiyyəti təşkilatlar birgə səy göstərməlidirlər. Azərbaycan qaçqın və məcburi köçkün məsələsinin həlli istiqamətində böyük səylər göstərir. Azərbaycan dünyadakı qaçqın probleminin həllinə töhfə vermək üçün böyük imkanlara malikdir. Azərbaycan öz ölkələrindən qaçan və buraya sığınan insanlara himayə göstərmək imkanlarına malik bir dövlətdir və bu imkanlarından geniş şəkildə istifadə edir. Furio De Angelis Azərbaycan xalqını və dövlətini Cocuq Mərcanlıya böyük qayıdışa görə təbrik edib. Sonra BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandinin videomüraciəti olub.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov çıxış edərək bildirib ki, 30 il bundan əvvəl ölkəmizdə yaranan qaçqın və məcburi köçkün problemi bu gün bütün dünyanı narahat edir. Bu gün dünyada 68 milyondan çox qaçqın və məcburi köçkün var. Bütün dünyanı ən çox narahat edən bu problemin həlli olmalıdır. Bütün dünyada olan qaçqın problemi Azərbaycandakı vəziyyətdən daha yüngüldür. Azərbaycanda bu problem daha acınacaqlıdır. Bu gün dünyada dövlətlər, siyasətçilər bu problemin həlli üçün səy göstərirlər. Ayrı-ayrı ölkələr bununla bağlı yardımlar ayırırlar. Ancaq görünür dünyada ədalət pozulub və qaçqın və məcburi köçkün problemi yaranıb. Əgər ədalət pozulmasaydı, bu problem bu qədər acınacaqlı olmazdı. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşəndən sonra başa düşmək lazım idi ki, bu, bir ölkə ilə yekunlaşmayacaq. Lazımi diqqətin olmaması səbəbindən vaxtilə Azərbaycanı çətin vəziyyətə salan bu problem indi bütün dünyanı silkələyir. Bu gün bu problemi yaradan səbəblər araşdırılmalı, məsələnin həlli istiqamətində birgə səylər göstərilməlidir. Azərbaycan dövlətinin böyük səyləri nəticəsində bu gün ölkəmizdə qaçqınların və məcburi köçkünlərin sosial vəziyyəti xeyli yaxşılaşıb. Lakin hələ də onlar öz yurd-yuvalarına qayıtmayıblar. Düşünürəm ki, Azərbaycanın haqq səsini vaxtilə eşitməyənlər bu gün bizim çağırışımızı dinləyəcəklər. Bizim hədəfimiz işğal olunmuş torpaqlarımızı azad etmək və qaçqın düşən vətəndaşlarımızı öz yurd-yuvalarına qaytarmaqdır.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev deyib ki, bugünkü tədbirin keçirilməsində əsas məqsəd bu problemin nə qədər vacib olduğunu bir daha diqqətə çatdırmaqdır. Azərbaycanda qaçqın və məcburi köçkün problemi ilə bağlı əsaslı işlər görülür. Lakin bu problem bütün dünyada böyük narahatlıq yaradır. Aidiyyəti təşkilatlar qaçqın və məcburi köçkün probleminin həlli ilə bağlı birgə çalışmalıdırlar.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov çıxışında bildirib ki, statistikaya baxdıqda görünür ki, bu məsələ həqiqətən də qlobal problemdir və ciddi yanaşma tələb edir. Biz bu problemin getdikcə dərinləşdiyini görürük. Buna görə yeni işlər görmək lazımdır. Böyük dövlətlər ikili standartları və məsələyə laqeydliyi aradan qaldırmalıdırlar. Azərbaycan bu məsələdə bir nümunədir. Lakin məsələ təkcə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin aradan qaldırılması ilə bitmir. Bu insanlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Tədbir bədii hissə ilə davam edib.



# Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti Çində səfərdədir

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti Ümumçin Xalq Nümayəndələri Yığıncağının sədri Li Canşunun dəvəti ilə Çin Xalq Respublikasında rəsmi səfərdədir.

AZƏRTAC xəbər verir ki, iyunun 20-də nümayəndə heyəti Çin Kommunist Partiyasının Mərkəzi Partiya Məktəbində olub. Nümayəndə heyəti əvvəlcə partiyanın muzeyi ilə tanış olub. Bildirilib ki, muzeydə partiyanın tarixinə, onun ölkənin siyasi həyatındakı vacib roluna dair eksponatlar saxlanılır. Milli Məclisin sədri Oqtay Əsədovun partiyanın rəhbərliyi ilə görüşündə iki ölkənin tarixən formalaşmış əlaqələrindən, müasir dövrdə müxtəlif sahələrdə, o cümlədən hakim partiyalar arasında əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olunub. Qeyd edilib ki, dövlət başçıları İlham Əliyevin və Si Cinpinin siyasi iradəsi ilə ikitərəfli əlaqələrimiz qarşılıqlı faydalı şəkildə inkişaf edir.

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində Pekindəki İmperator Sarayı və muzeyi ilə də tanış olub.

Bildirilib ki, 1420-1912-ci illərdə Çin imperatorlarının iqamətgahı kimi fəaliyyət göstərmiş bu tarixi abidə dünyada ən böyük saray kompleksi hesab olunur. Ənənəvi Çin memarlığı üslubunda inşa olunan, böyüklü-kiçikli 990-a yaxın tikilidən ibarət olan saray kompleksi UNESCO-nun Bəşəriyyətin Maddi İrs Siyahısına daxil edilib. Azərbaycan parlamentinin nümayəndə heyəti İmperator sarayını gəzib, kompleksin müxtəlif hissələri ilə tanış olub.

# Müdafiə naziri: "Ordumuz düşmən təxribatının qarşısını almağa hər an hazır olmalıdır"



İyunun 16-da Müdafiə Nazirliyində general-polkovnik Zakir Həsənovun rəhbərliyi və kollegiya üzvlərinin iştirakı ilə 2018-ci ilin qış tədris dövrünün yekunlarına dair geniş tərkibdə iclas keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə nazir müavinləri, qoşun növlərinin komandanları, nazirliyin baş idarə, idarə, müstəqil xidmət və şöbə rəisləri, birlik, birləşmə komandirləri, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin rəhbərləri və digər vəzifəli şəxslər iştirak ediblər. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Kollegiya iclasında hesabat dövründə ordu quruculuğu sahəsində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı məruzə dinlənilib, son dövrlərdə həyata keçirilən islahatlar, qoşunların döyüş hazırlığının vəziyyəti və digər məsələlər müzakirə olunub.

Müdafiə naziri 2018-ci ilin qış tədris dövründə Azərbaycan Ordusunun hazırlığının nəticələri və yay tədris dövründə qarşıda duran vəzifələr haqqında geniş məruzə ilə çıxış edib. Prezident İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən nazir Ali Baş Komandanın rəhbərliyi ilə son illər ərzində qazanılan nailiyyətlərdən danışıb.

General-polkovnik Z.Həsənov cari ildə görülən tədbirləri təhlil edərək döyüş hazırlığı, şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələlərini, eləcə də düşmənin istənilən təxribatının qarşısının alınması və ona layiqli zərbə endirilməsi məqsədilə 2018-ci ilin yay tədris dövründə qarşıda duran əsas vəzifələri diqqətə çatdırıb. Qeyd edilib ki, ordumuz düşmən təxribatının qarşısını almağa hər an hazır olmalıdır.

Müdafiə nazir Silahlı Qüvvələrin 100 illiyi ilə əlaqədar keçiriləcək tədbirlərə hazırlıqla bağlı səlahiyyətli şəxslərə müvafiq tapşırıqlar verib. Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

# Milli Qurtuluş Günü ilə əlaqədar Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının "Zəfərə doğru" bayraq yürüşü olub







***Azərbaycan sərhədçiləri 15 İyun - Milli Qurtuluş Gününün 25-ci ildönümünü yüksək səviyyədə qeyd edirlər. Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Xidmətin hərbi qulluqçuları "Zəfərə doğru" möhtəşəm bayraq yürüşü ilə dahi öndər Heydər Əliyevin xatirəsinə ehtiramlarını, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etmək şərəfinin yaratdığı qürur və iftixar hisslərini nümayiş etdiriblər.***



Tədbir Dövlət Sərhəd Xidmətinin Yevlax rayonunda yerləşən hərbi hissəsində dövlət himninin səslənməsi ilə başlayıb. Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycan xalqının Milli Qurtuluş Gününün 25-ci ildönümü münasibətilə şəxsi heyəti təbrik edib. O, xalqın təkidi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin sarsılmaz iradəsi, əzmi və zəngin dövlətçilik təcrübəsi sayəsində qısa zaman ərzində ölkədə sabitliyin bərpa edildiyini, tənəzzülün qarşısının alınaraq dövlətçiliyimizin qorunduğunu, müstəqilliyimizin əbədiliyinin və dönməzliyinin təmin edildiyini vurğulayıb.

95 illik yubileyini qeyd etdiyimiz Ümummilli Liderin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırıldığı qeyd olunub.

Təntənəli düzülüşdən sonra 2 kilometr uzunluğunda olan dövlət bayrağımız başda DSX-nin rəhbər heyəti, generallar və zabitlər olmaqla 2000 nəfərdən çox sərhədçinin çiyinləri üzərində hərbi hissədən çıxarılaraq vətənpərvərlik mahnılarının sədaları və yerli sakinlərin izdihamlı alqışları altında zəfər yürüşü keçirilib.

Yürüş iştirakçılarının önündə gedən Qarabağ atları üzərində sərhədçi süvarilərin böyük fəxrlə başları üzərinə ucaltdıqları müqəddəs dövlət bayrağımızın tədbirə cəlb olunmuş zirehli döyüş texnikalarının üzərində də dalğalanması, bayrağımızdakı səkkizguşəli ulduzu tərənnüm edən 8 helikopterin qrup halında uçuşları tədbiri daha da möhtəşəm edib.

Yürüş iştirakçıları ölkəmizin ərazi bütövlüyünün bərpası və Vətənimizin bütün sərhədlərinin dövlət bayrağı altında mühafizə altına alınması uğrunda savaşa sərhədçi hazırlığını nümayiş etdiriblər. Zəfər yürüşünün çoxsaylı gənclər və uşaqlar tərəfindən böyük coşqu ilə izlənilməsi, hərbi qulluqçularla təmasda olmaları, fotoşəkillər çəkdirmələri vətənpərvərlik ruhunda təşkil olunmuş tədbirin tərbiyəvi əhəmiyyətini də artırıb.

"Zəfərə doğru" sərhədçi yürüşü Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə dövlətçiliyimizi qüdrətləndirəcək və bütün sərhədlərimiz boyu üçrəngli bayrağımızı dalğalandıracaq böyük zəfərlərin təzahürü olub.



***Nikol Paşinyan "küçə inqilabı" vasitəsilə hakimiyyətə gələndə ermənilər çox sevinirdilər. Lakin daha ağıllı olanları bu prosesin mənfi nəticələr verə biləcəyini xatırladırdılar. İndi baş verənlər ehtiyatlı olmağı məsləhət görənlərin haqlı olduğunu təsdiqləyir. Hazırda Ermənistanın bir sıra siyasətçiləri və ekspertləri erməni xalqının təhlükə qarşısında qaldığından və siyasilərin ağıllı davranmalı olduqlarından bəhs edirlər. Onlar müəyyən çağırışlar edirlər. Hesab edirlər ki, cəmiyyət "klan prinsipi" üzrə parçalanır. Bu proses təhlükəli miqyas alıb və situasiya tam nəzarətdən çıxa bilər. Həmin sırada Dağlıq Qarabağdakı ermənilərin də etirazları ekspertlərin marağına səbəb olub. Bu prosesin nəticələri ilə bağlı təhlillər aparılır. Maraqlıdır ki, əksər ekspertlər ermənilərin artıq xilaskar kimi Azərbaycanı görməyə başladıqlarını ifadə edirlər. Bunun geosiyasi nəticələri üzərində geniş dayanmağa ehtiyac görürük.***



# Rəsmi İrəvanın siyasi iflası: ermənilər Azərbaycanı xilaskar görürlər

### "Küçə demokratları": əsl kimlikləri aydınlaşır

Nikol Paşinyanın "küçə demokratiyası"nın acı bəhrələrini artıq erməni xalqı dadır. Vəziyyət getdikcə bütün sahələrdə daha da kriminallaşır. Sahibkarlar ölkəni tərk edir, siyasi dairələr repressiyaya məruz qalır və hətta əsrlərlə siyasətlə iç-içə olan kilsə ilə hakimiyyət arasında ziddiyyət dərinləşir. Əvvəllər görünmədiyi səviyyədə sadə insanlar dini katolikosun istefasını tələb edirlər. General Manvel Qriqoryan isə Eçmiedzində şlaqbaumlar quraşdırıb, hakimiyyətə qarşı hərəkətə keçə biləcəyini bəyan edib. Çünki N.Paşinyan M.Qriqoryanın mer olan oğlunu işdən çıxarmaq istəyir.

Bütövlükdə erməni ekspertlər ölkədə siyasi repressiyaların aparıldığını və bunun fonunda yeni inqilab dalğasının yarana biləcəyini proqnozlaşdırırlar. Getdikcə daha çox siyasətçi N.Paşinyanın hərəkətlərindən narazılıq ifadə edir. Yeni baş nazir yüksək vəzifəli məmurları işdən azad etməklə yanaşı, onları həbsə atmağı da planlaşdırır. Bu tendensiya Dağlıq Qarabağ ərazisində yaradılmış qondarma rejim ətrafında yeni oyunun başlaması kontekstində maraqlı məzmun kəsb edir.

Xankəndində iki klan arasında əsl müharibə başlayıb. Serj Sarkisyan N.Paşinyana məhz Qarabağda zərbə vurmaq istəyir. Orada oyuncaq rejimin başında duran separatçı Bako Saakyanı vəzifədən çıxarmaq planı mövcuddur. Buna qarşılıq S.Sarkisyan tərəfdarları da hərəkətə keçiblər. Qarşıdurma getdikcə gərginləşir. Son olaraq İrəvandan göndərilən təhlükəsizlik əməkdaşları yerli camaatı döyüb və 15 nəfəri həbs edib.

Tez-tez təkrar olunan bu kimi hallar getdikcə daha geniş miqyas alır. Maraqlıdır ki, proses ermənilərin siyasi şüurunda müəyyən dəyişikliklər yaratmaqdadır. O sırada artıq Ermənistan cəmiyyətinin monolit siyasi mövqe tutduğunu demək çox çətindir. Ermənilər eyni məsələlərə fərqli münasibət göstərirlər.

Məsələn, Azərbaycana münasibət tədricən dəyişir. Xüsusilə Dağlıq Qarabağdakı ermənilər Azərbaycanı xilaskar kimi görməyə başlayıblar. Onlar 20 ildən artıqdır ki, təzyiq və qorxu altında yaşadıqlarını açıq etiraf edirlər. Bu müddətdə Azərbaycanın düşmən obrazının yaradılması və Ermənistan rəhbərliyinin "biz olmasaq, türklər sizi məhv edəcək" kimi yalan fikirlər aşılaması insanların psixikasına mənfi təsir edib. İndi ermənilər içərisində bütün bunların sadəcə bir yalan və iftira olduğunu, əsl fəlakətin erməni şovinizmindən və ultraradikal düşüncə tərzindən qaynaqlandığını dərk edənlərin sayı günügündən artır.

Həmin bağlılıqda bir neçə fikrə diqqət yetirək. Siyasi şərhçi Tevos Arşakyan çəkinmədən vurğulayır ki, Xankəndində ermənilərin üsyana qalxmasının ən dərin səbəbi klanlararası müharibənin başlaması ilə əlaqəlidir. Konkret olaraq, Serj Sarkisyan və Robert Koçaryanın yaratdıqları "Qarabağ klanı" qorxu aparatı formalaşdırıb. Bu klan Ermənistanda fəaliyyət göstərir və Dağlıq Qarabağda öz rıçaqları mövcuddur. İnsanlar yoxsulluq içərisində sürünürlər, korrupsiya baş alıb gedir və hərbi xunta rejimi, cinayətkar səhra komandirləri türk xofu yaradaraq ermənilərə zülm edirlər. Vəziyyət o dərəcədə dözülməzdir ki, sadə adamlar orada yaşaya bilmirlər. Narazılıq edənlər isə qondarma rejimin qoçuları tərəfindən cəzalandırılırlar.

Bütün bunların əsasında T.Arşakyan maraqlı nəticəyə gəlir. Erməni ekspert yazır: "İnsanlar rejimin indiyə qədər yaratdığı "Azərbaycan qorxusu"nun da yalan olduğunu anlayır. Hərçənd, müharibə və qan üzərində hakimiyyətə gələn "Qarabağ klanı" "Azərbaycan təhlükəsi"ni qabardaraq, insanları qorxu altında saxlayırdı. ... Zaman keçdikcə amansız rejimin Azərbaycandan daha təhlükəli olduğu ortaya çıxdı ... İndi ermənilər bilir ki, burada onlara rahat və firavan həyatı yalnız Azərbaycan bəxş edə bilər. İnsanlar Azərbaycanla sülhün əldə olunmasına çağırış edirlər. İndi buradakı ermənilər daha çox inanır ki, Qarabağa sabitliyi Nikol Paşinyan yox, İlham Əliyev gətirə bilər".

Keçmiş kəşfiyyatçı Vaan Badasyan isə "daha pis nəticələr"in ola biləcəyini gözləyir. Onun arqumentləri də T.Arşakyanın gətirdiyi faktlara oxşardır. Maraqlıdır ki, bu erməni separatçısının çıxardığı nəticə Azərbaycanın xeyrinədir. V.Badasyan deyib ki, İrəvan lazımi addımlar atmasa, insanlar üzünü Bakıya çevirə bilərlər: "Bəli, bu, Bakı ola bilər. Azərbaycan rəhbərliyinin Qarabağ siyasətində prioritet istiqamətlərdən biri də oradakı ermənilərin Ermənistandan üz çevirməsini təmin etməkdir. Çünki Azərbaycan dəfələrlə Qarabağdakı ermənilərin öz vətəndaşı olduğunu və münaqişə həll olunandan sonra onların orada rahat şəkildə yaşaya biləcəyini deyir. Bu, istər-istəməz zülm altında yaşayan insanları cəlb edir".

Erməni sosioloq David Karabekyan daha konkret fikir ifadə edir. Onun qənaətinə görə, Qarabağdakı ermənilər hansı yolla olursa-olsun, xilas olmaq istəyirlər. Bunun səbəbi kimi Xankəndindəki avtoritar qurumun insanlara böyük əziyyət verməsini göstərir. Hətta D.Karabekyana görə, indi ermənilər xilaskarın Bakı, yaxud İrəvan olmasında elə də fərq görmürlər. Sosioloq fikrinə belə yekun vurur: "Azərbaycan Ordusu Xankəndiyə gəlsə və ermənilər mövcud rejimdən xilas etsə, hər kəs onlara təşəkkür edəcək. Yəni, vəziyyət o həddə çatıb".

D.Karabekyan rəsmi dairələrin dilə gətirmədiyi bir həqiqəti də açıq deyib. O, Dağlıq Qarabağdakı qondarma rejimin İrəvandan idarə olunduğunu və bu mənada Ermənistanla "dqr"in əslində bir struktur təşkil etdiklərini yazıb. Yəni erməni sosioloq özü də bilmədən Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal edildiyini dilə gətirib. Ermənistanda olan küçə inqilabının dalğası indi Xankəndindəki separatçı qurumu silkələyir.

Siyasi şərhçi S.Artsruni və politoloq A.Osipyan da oxşar fikir bildirirlər. A.Osipyan vurğulayır ki, Dağlıq Qarabağda ermənilər artıq bu vəziyyətdən beziblər. "Qarabağa Bako Saakyan və bir neçə general nəzarət edib. Onlar 20 ildir insanları qarət edir, amansızlıq göstərirlər".

### Yanlış kurs: üç geosiyasi faktorun işığında

Ümumiyyətlə, bu cür mövqedə olan erməni mütəxəssislərin sayı getdikcə artır. Ancaq yuxarıda vurğuladığımız fikirlər üçün ortaq olan bir sıra məqamlar var ki, onların üzərində dayanmaq müəyyən geosiyasi həqiqətləri dərk etməyə imkan verərdi.

Birincisi, Dağlıq Qarabağda vəziyyətin gərginləşməsini birbaşa Ermənistandakı duruma bağlayırlar. Yəni kənardan hansısa qüvvənin Dağlıq Qarabağdakı ümumi sosial-siyasi və iqtisadi vəziyyətə təsir etmədiyi qənaəti vardır. Bu o deməkdir ki, ermənilər dolayı da olsa, "dqr" adlı bir qurumun olmadığını etiraf edirlər. Bu qondarma qurum faktiki olaraq İrəvandan təyin olunan separatçı-terrorçuların yaratdığı cəza rejimidir. Həmin cəza rejimi sadə ermənilərə zülm edir. Onlar Ermənistanda mövcud olan klanlara sıx bağlıdırlar. Bu səbəbdən Ermənistan rəhbərlərinin illərdir hay-küy saldığı "erməni demokratik hərəkatı", "erməni azadlıq prosesi" kimi ibarələrin heç bir əsası yoxdur. Burada bir qrup mafiozun korporativ maraqları vardır.

İkincisi, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi havadarlarının ciddi dəstəyi və yardımı ilə Ermənistan tərəfindən işğal edilib. Erməni ekspertlər sinxron olaraq bunu dolayı sözlərlə ifadə edirlər. Çünki onların təhlillərində daim Ermənistandan göndərilən emissarların hərəkətləri vurğulanır. Və həmin emissarlar yerli əhaliyə zülm edirlər. Dağlıq Qarabağda yaşayan ermənilər onlardan xilas olmağı düşünürlər.

Konkret desək, indi oradakı ermənilər Ermənistanın işğalçı siyasətinin əlamətlərinin aradan qaldırılmasını tələb edirlər. Onlar şübhə etmirlər ki, bütün bəlalar İrəvandan gəlir. Əgər Ermənistan Azərbaycan torpaqlarını işğal etməsəydi, indi Dağlıq Qarabağ erməniləri də Bakıdan faydalana bilərdilər. Onlar rifah və sabitlik içində yaşayardılar. Deməli, ermənilərin qarşısında dayanan ən böyük əngəl Ermənistanın işğalçılıq siyasətidir ki, bundan xilas olmaq gərəkdir. Başqa halda Dağlıq Qarabağdakı ermənilər normal həyat sürə bilməyəcəklər.

Üçüncüsü, artıq Dağlıq Qarabağda və hətta sadə vətəndaşlar anlayırlar ki, Azərbaycan dövləti böyük uğurlar qazanır. Bu, siyasəti, idarəetməni, iqtisadiyyatı, təhlükəsizliyi və sabitliyi əhatə edir. Onlar aldıqları informasiyalar vasitəsilə əmin olurlar ki, rəsmi İrəvan Azərbaycanla bağlı yalan şeylər danışır və əsl tərəqqi Azərbaycanda baş verir. Məsələn, mötəbər beynəlxalq tədbirlər Azərbaycanda keçirilir, dünyanın böyük dövlətləri Azərbaycanla bütün sahələrdə əməkdaşlıq edir, müxtəlif sahələrə aid müqavilələr imzalayırlar. Prezident seçkisindən sonra ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Rusiya, İran, Türkiyə kimi dövlətlərin başçıları İlham Əliyevi nəinki təbrik etdilər, hətta onunla ən yaxın və geniş əməkdaşlıq etməyə hazır olduqlarını bəyan etdilər.

Prezident İlham Əliyev Türkiyəyə və Böyük Britaniyaya etdiyi səfərlərdən ciddi sazişlərlə qayıtdı. Fransa, Almaniya, ABŞ, İran və Rusiya Azərbaycan Prezidenti ilə bütün sahələrdə yeni müqavilələr imzalamağa maraq göstərdiklərini bəyan etdilər. Ayrıca Amerika Prezidenti Donald Tramp daha geniş əlaqələrdən bəhs edən və Azərbaycanın xarici siyasətinə tam dəstəyini ifadə edən məktublar göndərdi.

Bütün bunlar "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı fonunda olduqca təsiredici görünür. TANAP-a qarşı illərdir qarayaxma kampaniyası aparan Ermənistan rəhbərliyi indi onun işə başlamasının səbəbini ermənilərə izah edə bilmir. Ermənilər özləri müşahidələri əsasında da belə qənaətə gəlirlər: Azərbaycan inkişaf edir, dövlət kimi güclənir, Ermənistan isə forpost olaraq bir addım belə irəli gedə bilmir.

Ermənilər artıq illərdir rəsmi dairələrin hərbi qüdrətdən dəm vuran ibarələrinə və təhlükəsizliyin təminine də inanmırlar. Onların psixi durumuna ilk ağır zərbəni 2016-cı ildəki Aprel döyüşləri vurdu. Sadə ermənilər gördülər ki, Azərbaycan Ordusu çox qısa zamanda Xankəndini azad edə bilər. Hətta İrəvana belə daxil olar. Bu o deməkdir ki, ermənilərin təhlükəsizliyini Ermənistan təmin edə bilməz! Bu tezisin digər mənası ondan ibarətdir ki, Ermənistan rəhbərliyi kor siyasəti ilə ölkəni Rusiyadan tam asılı vəziyyətə salıb. Moskva istədiyi vaxt ermənləri cəzalandıra bilər. O, əlini çəkdiyi an, Azərbaycan əsgəri Xankəndidədir!

Ardı Səh. 7

# Rəsmi İrəvanın siyasi iflası: ermənilər Azərbaycanı xilaskar görürlər

Əvvəli-Səh-6

Bunu son günlər Naxçıvan istiqamətində baş verən hərbi əməliyyatlar da təsdiqlədi. N.Paşinyanın qulbeçələri Naxçıvana yaxın əraziyə gedib, ağıllarına gələni sayıqlamışdılar. Hətta bir sıra şovinist erməni ekspertləri Naxçıvanı "azad etməkdən" dəm vurdular. Əslində isə nə baş verdi? Azərbaycan Ordusu qısamüddətli bir hərbi əməliyyatla Şərur rayonu istiqamətində 11 min hektar torpaq sahəsini və Günnüt kəndini işğalçılardan azad etdi, strateji əhəmiyyətli yüksəklikləri ələ keçirdi və indi İrəvan-Gorus-Laçın yoluna tam nəzarət edir. Azərbaycan Ordusu qədim türk diyarı olan Dərələyzdəki Arpa kəndini də erməni işğalından əbədi xilas edib.

Reallıq budur və əhəmiyyətlisi odur ki, artıq ermənilərin özləri də onu etiraf etməyə məcburdurlar. Onlar aydın görürlər ki, Ermənistanın və onun havadarlarının populist və pafoslu bəyanatlarına baxmayaraq inkişaf edən Azərbaycan, geridə qalan, deqradasiyaya uğrayan isə Ermənistandır! Özlüyündə bütün bu məqamlar başqa bir mühüm geosiyasi nəticə çıxarmağa əsas verir.

### İnformasiya müharibəsində yeni mərhələ: İlham Əliyev tam haqlıdır!

Biz rəsmi İrəvanın informasiya müharibəsində ciddi məğlubiyyətə uğramağa başladığını nəzərdə tuturuq. Bu bağlılıqda Azərbaycan Prezidenti İlham Əliyevin müqəddəs Ramazan ayı münasibətilə keçirilən iftar mərasimində ifadə etdiyi bir sıra fikirlərə nəzər salaq. Dövlət başçısı vurğulayıb: "Mənim illər ərzində dediyim sözləri indi erməni xalqı deyir. Mən dünyanın ən ali kürsüsündən - BMT kürsüsündən Ermənistanın əvvəlki kriminal rejimini ifşa etmişəm. Onları öz adları ilə çağırmışam. Onları Xocalı soyqırımında ittiham etmişəm, hərbi cinayətlərdə ittiham etmişəm. Ermənistanın əvvəlki hakimiyyətini qaniçən, kriminal, quldur rejim adlandırmışam. Bütün bunlar həqiqətdir. Mən həqiqəti demişəm, indi bu həqiqəti erməni xalqı deyir" (bax: Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib / AZƏRTAC, 6 iyun 2018).

Bəli, Prezident İlham Əliyev hələ 15 il bundan öncə informasiya sahəsində hücuma keçməyin zəruriliyini vurğuladı və onu bir vacib vəzifə kimi Azərbaycanın qarşısında qoydu. Ölkə rəhbəri bu istiqamətdə çox ciddi və geniş fəaliyyət göstərdi. İlham Əliyev tutarlı arqumentlərlə Ermənistanın işğalçılığını və hərbi xunta rejiminin əsl simasını dünyaya anlatdı. Bu fəal siyasətin nəticəsini indi həm Azərbaycan, həm də Ermənistan görməkdədir. Yəni Azərbaycan xalqı dövlət başçısının səmərəli və uğurlu fəaliyyəti ilə fəxr edir, erməni xalqı isə öz hakimiyyətinin real simasının nədən ibarət olduğunu açıq deyir!

Dövlət başçısı fikirlərini inkişaf etdirərək erməni xalqının bir həqiqəti də dərk etməyə başladığını bəyan edib. İlham Əliyev ifadə edib: "Mən dəfələrlə demişdim ki, Ermənistanda iqtisadi böhran, demoqrafik böhran yaşanır, ölkə boşalır, hər il on minlərlə insan o ölkəni həmişəlik tərk edir, Ermənistanda inkişaf üçün heç bir perspektiv yoxdur. Demişəm ki, Azərbaycan Ermənistanı dalana çevirib, iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib. Nəyə görə? Ona görə ki, Ermənistan torpaqlarımızı işğal edib" (bax: əvvəlki mənbəyə).

İndi erməni mütəxəssisləri Ermənistanın iqtisadi iflasa uğradığını konkret faktlarla sübut edirlər. N.Paşinyan kimi "küçə siyasətçisi"nin hakimiyyətə gələ bilməsi də bu faktla sıx bağlıdır. Bu o deməkdir ki, Ermənistanda siyasi mübarizə mədəniyyəti keçən əsrin 90-cı illərinin əvvəllərindəki səviyyədən yüksələ bilməyib. Hələ də Ermənistanda ədaləti, siyasi və iqtisadi tərəqqini, təhlükəsizliyi qanunları, sivil inkişaf proqramlarını həyata keçirməklə deyil, küçədən olan təzyiqlə həll etməyin mümkünlüyünə inanırlar.

Hər hansı bir ölkənin siyasi səviyyəsi baxımından bu, ciddi faktdır. Çünki dünyanın heç bir demokratik ölkəsində küçədən təzyiqlə inkişaf baş vermir. Cəmiyyətin təfəkküründə inkişaf paradiqmasının reallaşması yalnız islahatlar, qanunun aliliyinin təmin edilməsi, səmərəli layihələrin həyata keçirilməsi vasitəsilə olur. N.Paşinyan hadisəsi isə göstərdi ki, Ermənistanda cəmiyyət zorakı küçə təzyiqləri yolu ilə zülmdən xilas olmağın mümkünlüyünə inanmaqdadır. Bu proses indi də davam edir. Lakin erməni xalqının özü-öz radikallığının girovuna çevrilib. Orada boğulur.

Bunlarla yanaşı, həmin proses bizim üçün daha əhəmiyyətli olan bir reallığı da ortaya qoyur. Bu aspektdə Prezident İlham Əliyev lakonik şəkildə aşağıdakı fikri ifadə edib: "İndi bütün bunları erməni xalqı deyib və deyir. Bu, bir daha onu göstərir ki, bu münaqişədə Azərbaycan öz istədiyinə nail olacaq, həqiqəti, ədaləti bərpa edəcək. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki hakimiyyətin səhvlərini təkrarlamayacaq və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görəcək və imitasiya naminə yox, real danışıqlar prosesinə start veriləcək" (bax: əvvəlki mənbəyə).

İlham Əliyev vurğulayır ki, son nəticədə Qafqaza sülh gələ bilər. Azərbaycan da bunu istəyir. Çünki buna onun haqqı var. Rəsmi Bakı ümid edir ki, münaqişə danışıqlar yolu ilə həll oluna bilər (bax: əvvəlki mənbəyə). Azərbaycan Prezidentinin bu fikirləri bəzi dairələrin bir yanlışlığını da üzə çıxarmış olur. Elə hesab edilirdi ki, Azərbaycan Ermənistanda yaranmış vəziyyətdən istifadə edib, hərbi əməliyyatlara başlayacaq.

Təbii, nə qədər ki, torpaqlarımız işğal altındadır, bunu istənilən zaman gözləmək lazımdır. Ancaq Azərbaycan rəhbəri qlobal geosiyasi vəziyyəti də nəzərə alaraq, yenə də sülh yoluna üstünlük verdiyini bəyan edib. Azərbaycan dövləti mahiyyətcə sülhpərvərdir, ancaq özünün ərazi bütövlüyündən də heç zaman imtina etməyəcək. Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına icazə verilməyəcək. Ermənilər danışıqlar yolu ilə işğal etdikləri ərazilərdən çıxmasalar, Azərbaycan Ordusu öz vəzifəsini yerinə yetirəcək.

Bunların fonunda Ermənistanın xarici işlər nazirinin Moskvadan əliboş geri qayıtması tam gözlənilən idi. Ona Kremldə açıq anladıblar ki, Dağlıq Qarabağ münaqişəsinin həlli incə məsələdir və Azərbaycanın maraqları gözlənilməlidir. Qarabağdakı qondarma rejimin danışıqlarda tərəf kimi iştirakı istisnadır. ATƏT-in Minsk qrupunun vasitəçilik formatı dəyişdirilmir. Əgər hansısa dəyişiklik olsa, onda Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları eyni statusla iştirak edə bilərlər.

Deməli, Nikol Paşinyan hökumətinin Dağlıq Qarabağ siyasəti reallığa söykənmir. Bu da onun Serj Sarkisyanın səhvini təkrar etdiyini göstərir. Radikal, birtərəfli və qeyri-obyektiv siyasətlə nəyəsə nail olmaq mümkün deyildir. Prezident İlham Əliyev bütün bunlara görə, Ermənistandakı yeni hakimiyyəti əvvəlki erməni rəhbərlərinin səhvini təkrarlamamağa dəvət edib. Əks halda, ziyan çəkən erməni tərəfi olacaq.

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, Ermənistan rəhbərliyinin münaqişənin həlli məqsədilə aparılan danışıqlarda qeyri-konstruktiv mövqe tutması artıq erməni cəmiyyətində narazılıqları artırır. Rəsmi İrəvan daxili mühitdəki gərginliklərlə yanaşı, qlobal geosiyasi səhnədə baş verən proseslərin təbii məntiqinə qarşı getmək nəticəsində meydana çıxan mürəkkəbliklərlə də üz-üzədir. Onun bu vəziyyətdən necə çıxacağı yalnız özündən asılıdır. Rasional və ədalətli mövqe tutmasalar, böyük problemlərlə qarşı-qarşıya qalacaqlar!

**Newtimes.az**

## Mariya Zaxarova: Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllinə töhfə vermək üçün əlindən gələni edəcək



Rusiya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına konstruktiv töhfə vermək üçün əlindən gələni edəcək. Bunu Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova bu gün keçirdiyi mətbuat konfransında deyib. /Trend/

M.Zarova qeyd edib: "Birincisi, Rusiya ATƏT-in Minsk qrupunun iştirakçısı kimi öz roluna sadiqdir, ikincisi isə mövcud böhranın nizamlanmasına və bu iki ölkənin münasibətlərinin normallaşmasına konstruktiv və səmərəli töhfə vermək üçün ondan asılı olan hər şeyi edəcək. Bu bizim ənənəvi mövqeyimizdir. Bizim üçün bu, çox ciddi məsələdir.

## "Beynəlxalq ictimaiyyət hər bir millətin təhlükəsiz yaşamasına şərait yaratmalıdır"



"Beynəlxalq ictimaiyyət hər bir insan, xalq, millət üçün təhlükəsiz yaşamağa şərait yaratmalıdır və hər insan, millət bundan bəhrələnməlidir. Bizim bundan başqa yolumuz qalmayıb". SİA-nın məlumatına görə, bunu Milli Məclisin sədr müavini Bahar Muradova "Hüquq bərabərliyinin təmin olunmasında və təşviqində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda keçirilən Ombudsmanların XV Bakı Beynəlxalq Konfransında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, 18 iyun bütün ölkələrdə İnsan Hüquqları Günü kimi qeyd edilir: "Lakin çox təəssüf ki, insan hüquq və bərabərliyinin təmin olunmasını nəzərdə tutan beynəlxalq sənədin nəzərdə tutduğu müddəaları yerinə yetirməli olan ayrı-ayrı təşkilatlar, beynəlxalq ictimaiyyət bu müddəaları yerinə yetirmir. Çox təəssüf ki, biz getdikcə belə hallarla daha çox qarşılaşırıq. Bu gün dünyada milyonlarla qaçqınlar bu günü qeyd etməyə məcbur olurlar. Bu günün qeyd olunmasının vacibliyi beynəlxalq təşkilatlara bir daha onu göstərir ki, insanlar öz ölkələrində, yaxud da sərbəst şəkildə seçdikləri ölkələrdə heç bir dini, irqi fərq qoyulmadan öz hüquqlarını reallaşdıra bilməli, bir ölkədə qəbul olunmuş qaydalar digər ölkədə keçərli olmalıdır".

## Zakir Həsənov: "Azərbaycan Ordusu Laçına gedən yola nəzarət edir"



Naxçıvanda çox uğurlu hərbi əməliyyat keçirilib. AZƏRTAC xəbər verir ki, bu barədə müdafiə naziri Zakir Həsənov iyunun 20-də keçirdiyi mətbuat konfransında deyib. Nazir bildirib: "Neytral torpaq anlayışı yoxdur. Sahibsiz torpaq da yoxdur. Bu ərazilər bizim torpaqlarımızdır. Ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar ərazi işğaldan azad edildi. Bildirmək istəyirəm ki, Laçına gedən yola artıq ordumuz nəzarət edir. Bu, bizim növbəti uğurumuzdur".

## "Son 15 ildə əmək pensiyanın orta aylıq məbləği 11,3 dəfə artıb"

"Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan hazırda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial siyasət əhalinin sosial həyatının yüksəlməsinə şərait yaradır". SİA-nın xəbərinə görə, bunu Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Natiq Məmmədov Bakıda Ombudsmanların XV Bakı Beynəlxalq Konfransında çıxış edərkən deyib. O bildirib ki, hazırda Azərbaycanda əmək və məşğulluq, sosial müdafiə hər bir cəmiyyət üzvü üçün bərabər imkan yaratmaqla yanaşı, onların rifahının yaxşılaşdırılmasında mühüm rola malikdir: "Cənubi Qafqazda iqtisadi qüdrətini görə seçilən Azərbaycanda yoxsulluq səviyyəsi 5 faizə enib. Bu da qlobal yoxsulluq səviyyəsindən 3 dəfə azdır. Sosial rifahın yaxşılaşması, yoxsulluğun səviyyəsinin azalması həssas təbəqədən olan insanların yaşayışına təsirsiz ötüşməyib. Respublikanın regionlarının və iqtisadiyyatın təmin edilməsi məqsədilə əmək tutumlu yeni iş yerlərinin yaradılması, işsizliyin azaldılması əmək bazarının inkişafı əsas məqsədlərdən biridir. Bütün bunlar nəticə etibarı ilə vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasına gətirib çıxarır".

Nazir müavini söyləyib ki, sosial müavinətlər, pensiya sistemi ilə bağlı da ölkəmizdə son illər ciddi islahatlar həyata keçirilib: "Aztəminatlı ailələr üçün ünvanlı sosial yardım mühüm rola malikdir. Həyata keçirilən sosial müdafiə tədbirləri nəticəsində 2003-cü ilə müqayisədə 2018-ci ilin yanvarın 1-dək əmək pensiyanın orta aylıq məbləği 11,3 dəfə artıb, bu dövrdə əmək pensiyasının maliyyələşməsinə ayrılan vəsait 17 dəfə artıb. Ölkə başçısının sərəncamına əsasən 2017-ci ildə əmək pensiyası 5,7 faiz artıb". N.Məmmədov söyləyib ki, son illər sosial xidmət sahəsində xeyli irəliləyiş əldə edilib: "Burada Heydər Əliyev Fondunun həyata keçirdiyi işləri xüsusi vurğulamaq lazımdır. Fondun təşəbbüsü ilə ölkənin müxtəlif yerlərində uşaqların sosial reabilitasiyası mərkəzləri yaradılıb. Hər iki valideynini itirmiş gənclərin mənzillər təmin olunması istiqamətində mühüm işlər görülüb. Onların evlə təmini məqsədilə nazirliyin tabeliyində mərkəz yaradılıb. 120-150 mənzilli bina istifadəyə verilib.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

21 iyun 2018-ci il

# “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in açılışı olub

***İyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in açılış tədbiri keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev, Əlcəzairin mədəniyyət naziri Əzzədin Mihobi, Qvineya Respublikasının mədəniyyət, idman və tarixi-mədəni irs naziri Sanosi Bantama Sou, İndoneziya Respublikasının təhsil və mədəniyyət naziri Muhacir Əfəndi, Tacikistan Respublikasının mədəniyyət naziri Şəmsəddin Şodibek, Özbəkistanın mədəniyyət naziri Bəxtiyar Seyfullayev, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının baş katibi Düsen Kaseinov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə və digər qonaqlar ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoyub, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər.***





Daha sonra tədbir iştirakçıları Heydər Əliyev muzeyinə gələrək dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlara baxıblar. Tədbir başlanmazdan əvvəl teatrın foyesində fotoqraf Hüseyn Bağırovun “Mənim Naxçıvanım” fotosərgisinə baxış olub. Naxçıvanın bütün gözəlliklərini, özünəməxsus təbiətini və müasir inkişafını nümayiş etdirən fotolar maraqla qarşılanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Haçadağın fotoşəklini İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycriyə, Batabatın fotoşəklini isə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının baş katibi Düsen Kaseinova hədiyyə edib.

“Qurani-Kərim”in tilavəti ilə başlayan tədbirdə Naxçıvan Dövlət Televiziyasının hazırladığı “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan” televiziya filminə baxış olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov Azərbaycanın Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində əlamətdar tarixi günlərin yaşandığını bildirərək tədbir iştirakçılarını salamlayıb və deyib: İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilmiş altıncı konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdur.

Ali Məclisin Sədri Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi təşəbbüsünə və dəvəti qəbul edib açılış tədbirində iştiraka görə qonaqlara təşəkkürünü bildirib və qeyd edib ki, İslam ölkələri ilə əməkdaşlığa xüsusi diqqət yetirən ümummilli liderimiz Heydər Əliyev deyirdi: “İslam dini sülh, qardaşlıq və əməkdaşlıq dinidir... Bu, tarixboyu Azərbaycanda öz əməli ifadəsini tapmışdır.” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də dini-mənəvi dəyərlərimizin yaşadılmasına xüsusi diqqət yetirir və dünyaya dövlət-din münasibətlərinin tənzimlənməsi modelini təqdim edir. Ölkəmizdə mövcud olan dini dözümlülük və tolerantlıq, multikultural dəyərlər nümunə kimi götürülür.

Belə bir şəraitdə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi barədə qərarın qəbul olunması tarixi hadisədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, “Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən yaxın və orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində islam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır.”

Ali Məclisin Sədri deyib: Beş min illik şəhər mədəniyyətinə malik olan Naxçıvan tarixən təktanrıçılığın mərkəzlərindən biri olub. İslamaqədərki dövrdə burada yaşayan Azərbaycan türkləri dini etiqad, adət-ənənə və mənəvi dəyərlər baxımından İslam dininə yaxın idilər. Ona görə də yerli əhali İslam dinini 653-cü ildə könüllü qəbul etmişdir. İslam elm, mədəniyyət, sülh və mərhəmət dinidir; mənəvi saflığa və ədalətə çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində islam təhsilinin, elminin və mədəniyyətinin böyük rolu vardır. Bunun sayəsində qədim Naxçıvan şəhərində də zəngin tarixi-mədəni irs formalaşmışdır. Möminə xatın, Gülüstan, Qarabağlar türbələri, buxxana və hamamlar, qədim məscidlər və digər abidələr bu torpaqda yaradılmış çoxsaylı türk-islam mədəniyyətinin dövrümüzə qədər gəlib çatmış nadir nümunələridir. Bütün bunlar onu göstərir ki, İslam mədəniyyəti güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə inkişaf etmiş, böyük yaradıcı gücə malik olmuşdur. Naxçıvanda türk-islam mədəniyyəti on ikinci əsrdə - Azərbaycan Atabəylər dövləti zamanında özünün intibah mərhələsinə çatmışdır. Bu dövrdə yaşayıb-yaradan memar Əcəmi Əbubəkir oğlu Naxçıvaninin sənəti nəinki Azərbaycan, ümumilikdə Yaxın Şərq və İslam memarlığında yeni bir məktəbin əsasını qoymuşdur.

Qeyd olunub ki, Naxçıvan artıq orta əsrlərdə İslam mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilmişdi. On beşinci əsrdə tərtib edilmiş “Dünyanın İslam tarixi xəritəsi”ndə Naxçıvanın adı qeyd edilib və yazılıb: “Naxçıvan İslamın ən güclü dayaqlarından biridir... Naxçıvan yaşayış məntəqəsi Allaha yaxınlığı ilə Azərbaycan üçün möcüzədir”. On səkkizinci əsrdə Naxçıvan xanlığı dövründə də bu torpaqda İslam dəyərləri yaşadılıb, tarixi-mədəni irs davam və inkişaf etdirilib. Azərbaycan müstəqillik qazandıqdan sonra isə Naxçıvan Muxtar Respublikasında İslam dəyərlərinə yeni yanaşmanın - elmi baxışın əsası qoyulub, türk-islam mədəniyyəti abidələri tədqiq olunub, Naxçıvan İslam mədəniyyətinin əsas inkişaf mərkəzi kimi bir daha öz təsdiqini tapıb.

Ali Məclisin Sədri bir daha iştiraklarına görə qonaqlara təşəkkürünü bildirib, “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan - 2018” tədbirlərini açıq elan edib.




İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri çıxış edərək deyib: Bu möhtəşəm tədbirdə sizinlə olmaqdan böyük məmnuniyyət hissi duyuruq. Naxçıvan 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir. İlk növbədə mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə minnətdarlığımı bildirmək istərdim. O öz ölkəsinə və eyni zamanda, İslam təşəbbüslərinə böyük dəstək verir. Həmçinin səmimi qəlbdən və ürəkdən minnətdarlıq hissi ilə Naxçıvan Muxtar

# "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"in açılışı olub




Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbova da çox sağ ol demək istərdim. Bu cür mükəmməl təşkilatçılıq, təbii ki, danılmazdır.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı tərəfindən həyata keçirilən bu proqram üzv dövlətlərin də birlikdə koordinasiyası çərçivəsində icra edilir və ən önəmli mədəni layihələri, sivilizasiya və bəşəri dəyərlərin İslama bağlılığını nümayiş etdirir. Bu paytaxtların seçilməsi dini fəlsəfə çərçivəsində həyata keçirilir. Burada konkret xüsusi bir ölkə meyarları vardır. Seçilən paytaxt zəngin tarixə sahib olmalı, mədəni baxımından və eyni zamanda, islam mədəniyyətinə və bəşəri dəyərlərinə, insani dəyərlərə töhfə verməlidir. Bu gün bəşəriyyətin fərdi çağırışlarla üzləşməsinin şahidi oluruq. Ona görə də bəzi mədəni və bəşəriyyətlə bağlı xüsusi proqramlar icra olunur. Bu proqram da tarixi yaddaşı bir növ din vasitəsilə insanlara qaytarmağa çalışır. Yəni keçmişi və hazırkı dövrü bir-birinə bağlamaq cəhdidir. Beləliklə, burada məqsəd cəmiyyətdə xüsusi mexanizmlər vasitəsilə yaradıcılıq, elm və digər sahələrə əlavə töhfə verməkdən ibarətdir. ISESCO ümumdünya sülh, harmoniya, intellektual yaradıcılıq, eyni zamanda, elm və araşdırmalar vasitəsilə bu işə töhfə verir. Həyata keçirilən proqramlar fərqli və çeşidli olur. İl ərzində ISESCO tərəfindən qeyd olunan proqramlar çərçivəsində müxtəlif tədbirlər keçiriləcək, ekstremizmə və islamafobiyaya qarşı mübarizə aparılacaqdır.






Mən ilk dəfədir Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gəlirəm. Naxçıvanı kəşf etdikcə belə bir qənaətə gəlirəm ki, bura cənnətdir. İslam tarixinin bir parçası olan Naxçıvan İslamın olduğu kimi təbliğinə öz töhfəsini verir. Azərbaycanın bu gözəl guşəsində olmağımızdan məmnunluq duyuruq. Buradan bütün dünyaya çatdırmaq istəyirik ki, İslamın terrorizmlə eyniləşdirilməsi qəbuledilməzdir. Fürsətdən istifadə edərək bildiririk ki, bilikli, bacarıqlı və konstruktiv yanaşma vasitəsilə insanlara İslamın gerçək üzünü və gözəlliyini göstərəcəyik.

Açılış tədbirində çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev deyib: Bu gün tarixi bir hadisənin - Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyəti Paytaxtı elan edilməsinin işığına toplaşmışıq. Naxçıvan bu coğrafiyanın ən müqəddəs torpağıdır və onun mədəniyyəti, tarixi Azərbaycan xalqının qədim sivilizasiyasının beşiklərindən biri olduğunu nümayiş etdirir. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır. Bu torpaqda 1000-dən çox tarixi abidənin mövcud olması və onlardan 60-a yaxın abidənin dünya əhəmiyyətli olması öz-özlüyündə Naxçıvanın qədim tarixinin göstəricisidir.

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, Gəmiqaya rəsmləri, "Naxçıvanqala", "Nuh2 türbəsi, "Qarabağlar", "Yusif Küseyiroğlu", "Möminə xatın" türbələri, Əlincəqala və digər abidələrin xüsusi bir özəlliyi ondadır ki, bu tarixi irs nümunələri həm maddi-mənəvi baxımdan, həm də dini inanc baxımından müqəddəs dəyərlərlə bağlıdır. Məhz bu amillər Bakının İslam Mədəniyyətinin Paytaxtı kimi qeyd edildiyi 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmasına dair qərar qəbul edilməsini şərtləndirmişdir. Həmin qərar Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Fürsətdən istifadə edərək bu müdrik qərarı verdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, bu təşəbbüsə yüksək dəstəyini göstərən cənab Əbdüləziz Osman əl-Tuveycriyə bütün mədəniyyət ictimaiyyəti adından minnətdarlıq edirəm. Ölkə Prezidentinin qərarı ilə Təşkilat Komitəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sədrliyi ilə Təşkilat Komitəsi tərəfindən mühüm işlər görülmüşdür.

Naxçıvan həm tarixi-mədəni abidələri, həm müasir inkişafı, həm də müdrik və ziyalı insanları ilə tanınır. Lakin bu torpaq Azərbaycan xalqı üçün, böyük islam dünyası üçün təkcə abidələri ilə deyil, eyni zamanda, xalqımızın ümummilli lideri Heydər Əliyevin vətəni kimi doğma və əzizdir.

Təbii ki, islam mədəniyyətindən və tarixindən danışarkən biz İslam Elm, Təhsil, Mədəniyyət Təşkilatının rolunu xüsusi qeyd etməliyik. Azərbaycan Respublikası 1991-ci ildən ISESCO-nun üzvüdür. 1991-ci ildə qurulmuş və bu münasibətlə cənab Prezidentin müdrik siyasəti, ölkəmizin 1-ci Vitse-prezidenti, respublikamızın birinci xanımı Mehriban Əliyevanın 2006-cı il 24 noyabr tarixində ISESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə uğurlu inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu təşkilatın dəstəyi ilə ölkəmizdə son 10 ildə islam ölkələrinin mədəniyyət, təhsil, ailə və qadın məsələləri üzrə nazirlər konfransları, ISESCO-nun baş konfransı və icraiyyə şurası, həmçinin cənab Prezidentin təşəbbüsü olan Bakı Prosesi və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, İslam Həmrəylik Oyunları keçirilmişdir. Həmçinin son üç ildə ölkəmiz ISESCO-nun baş konfransına sədrlik edir. Bu amillər cənab Prezident tərəfindən 2016-cı ildə Azərbaycan Respublikasının ISESCO üzrə Milli Konfransının yaradılmasına dair xüsusi Sərəncam imzalanmasına, eyni zamanda, İslam dünyası ilə dərin və sıx əlaqələrin olması 2017-ci ilin isə İslam Həmrəylik İli elan edilməsinə töhfə vermişdir. Bu faktlar bir daha sübut edir ki, Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda, Müsəlman İntibahının bərqərar olunmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır. Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Həm Naxçıvan, həm də Azərbaycanın digər bölgələrində müsəlman şiə və sünniləri arasında heç bir dini və mədəni ziddiyyət mövcud deyildir və bu birgəyaşama mədəniyyəti dünya üçün bir nümunədir. Naxçıvanda bu sahədə mövcud olan çoxəsrlik tolerant mühit onun islam mədəniyyəti paytaxtları arasında xüsusi yerini müəyyən edir. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova minnətdarlıq edirik. Sonda Naxçıvan Dövlət Filarmoniyasının konserti olub.

"Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"in açılış tədbiri "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"in rəsmi internet səhifəsi olan imp.nakhchivan.az saytında, Naxçıvan Dövlət Televiziyasında və "Nuhçıxan" İnformasiya Agentliyinin nuhcixan.az saytında canlı yayımlanıb.

* * *

Həmin gün "Araz" Dövlət Qəbul Evində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"in açılış tədbirində iştirak üçün Naxçıvana gəlmiş qonaqların şərəfinə rəsmi ziyafət verilib.

# Yeni Azərbaycan Partiyası təkcə ölkənin deyil, regionun aparıcı siyasi təşkilatıdır





Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev ərazi ilk partiya təşkilatı sədrləri ilə görüş keçirib. Görüşdə çıxış edən YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili bildirib ki, Yeni Azərbaycan Partiyası təkcə ölkənin deyil, regionun aparıcı siyasi təşkilatıdır. Eyni zamanda, ölkədə keçirilən bütün seçki proseslərində hakim partiyanın qələbəsinin onun yenilikçi siyasi təşkilat olması ilə əlaqələndirən N.Həmzəyev bununla yanaşı, partiyanın siyasi kursunun əsas aspektlərindən, YAP Gəncə şəhər təşkilatının qarşısında duran vəzifələrindən danışıb.

N.Həmzəyev partiya fəallarının hər bir uğurunda, xüsusilə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyə və tapşırıqlarının mühüm rolu olduğunu qeyd edib.

Tədbirdə ərazi ilk partiya təşkilatları sədrlərinə fəaliyyətlərini işin günün tələbləri səviyyəsində qurulmasını, ərazi ilk partiya təşkilatlarında maarifləndirici təbliğat tədbirlərinin gücləndirilməsini, gənc nəslə sağlam həyat tərzi aşılamaq üçün maarifləndirici tədbirlərin keçirilməsi tövsiyə edilib.

Geniş diskussiya şəraitində keçən tədbirdə ərazi ilk partiya təşkilatlarında görülən işlər və qarşıda duran məsələlər müzakirə edilib.

**Rövşən NURƏDDİNOĞLU**

# Dövlət Sərhəd Xidmətində Milli Qurtuluş Gününün 25 illiyi münasibətilə silsilə tədbirlər keçirilib

Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində 15 İyun - Milli Qurtuluş Gününün 25 illik yubileyi münasibətilə silsilə tədbirlər keçirilib.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən verilən məlumata istinadən, keçirilən silsilə bayram tədbirlərinin davamı olaraq "Sərhədçi" İdman Olimpiya Mərkəzində xalqımızın Milli Qurtuluş Gününün 25 illik yubileyinə həsr olunmuş və idmanın müxtəlif növləri üzrə sərhədçilərdən ibarət yığma komandanın ustalarının nümunəvi çıxışları nümayiş olunub. Azərbaycan Dövlət Himninin ifası ilə başlayan idman tədbirinin açılış mərasimində çıxış edənlər müstəqil, müasir Azərbaycan dövlətinin banisi, Dövlət Sərhəd Xidmətinin yaradıcısı Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən söz açaraq, məhz bu dahi Şəxsiyyətin müdrikliyi və qətiyyəti sayəsində ölkəmizdə vətəndaş qarşıdurmasına son qoyulmasını, Azərbaycanın dövlət müstəqilliyinin qorunub-saxlanılmasını böyük minnətdarlıq hissi ilə qeyd ediblər.



Tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin diqqəti və qayğısı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə ölkəmizdə keçirilən beynəlxalq idman yarışlarının Azərbaycan dövlətinin gücünü, iqtisadi qüdrətini, möhtəşəm yarışları keçirmək bacarığını, qazanılan qələbələrin isə ölkəmizdə idmana və idmançılara göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi olması xüsusi olaraq vurğulanıb.

Sərhədçi idmançılarımızın cüdo, karate, boks, tekvando, gimnasitika və s. idman növləri üzrə nümunəvi çıxışları tədbirdə iştirak edən tamaşaçılar tərəfindən böyük maraqla izlənilib.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin Zabitlər Evinin rəqs kollektivi və incəsənət ustaları konsert proqramı ilə çıxış ediblər.

**ZÜMRÜD**

# “Nar”-dan Naxçıvan üçün xüsusi təklif




“Nar” operatoru Naxçıvan üçün xüsusi təkliflə çıxış edib. Artıq “Turbo L” paketini 50% endirimlə əldə etmək mümkündür. Paketi aktivləşdirən abunəçi 1,5 GB interneti 3 AZN-ə əldə edir. “Turbo L” paketini 11-15 iyun tarixləri arasında sifariş edən bütün abunəçilər bu endirimdən yararlana biləcəklər. Paketin istifadə müddəti 30 gündür. İstifadə müddəti bitdikdən sonra paket standart şərtlərlə avtomatik olaraq aktivləşir.

Kampaniyaya qoşulmaq üçün *777#04#yes yığmaq və ya +L yazıb 777 nömrəsinə göndərmək lazımdır. Bonusları yoxlamaq üçün isə *777#20#YES yığmaq kifayətdir. Bu təklif yalnız müvafiq SMS bildirişini alan “Nar” abunəçilərinə şamil olunur. Kampaniya haqqında daha ətraflı məlumatı aşağıdakı keçid vasitəsilə əldə etmək olar: https://www.nar.az/turbo-l-nakhchivan

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.



# *Əli Kərimlinin Günnüt qorxusu*

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Azərbaycan Ordusunun istər Qarabağ cəbhəsində, istərsə də Naxçıvanda ard-arda qazandığı zəfərləri AXCP sədri Əli Kərimlini məyus edib. Bu baxımdan, şanlı Silahlı Qüvvələrimizin qələbə yürüşlərindən “mütəəssir olduğunu” gizlətməyən Ə.Kərimli, xüsusilə, Naxçıvanın Günnüt kəndinin erməni işğalından azad edilməsi istiqamətində ermənilərin maraqlarına xas olan fikirlərini ictimailəşdirməkdədir. Onu da xatırlatmaq yerinə düşərdi ki, hələ 2 il öncə, aprel qələbəmiz əldə edilərkən, Ə.Kərimlinin Ordumuzun uğurlarına çirkab atması erməni mediasında geniş şəkildə işıqlandırılmışdı.***

Maraqlısı da budur ki, Müdafiə Nazirliyi əldə edilən uğurları bütün faktlarla ictimaiyyətin nəzərinə çatdırır, AXCP sədri isə bu faktları ermənilərin xeyrinə yalanlamağa cəhdlər göstərir. Halbuki Ermənistanda Azərbaycanın uğurlarına qarşı dezinformasiya xarakterli məlumatlar yayılır və bu məlumatlar işğalçı ölkənin iqtidarı və müxalifəti tərəfindən, birmənalı olaraq, qəbul edilir. Hətta Ordumuzun qələbələri faktlarla sübut olunsa belə, ermənilər bir ağızdan özləri tərəfindən yayılan yalanlara inanmaq məcburiyyətində qalırlar.

Bu zaman belə bir sual yaranır: Azərbaycanın Silahlı Qüvvələri cəbhədə nailiyyətlər əldə etdiyi, strateji yüksəkliklərin Ordumuzun nəzarətinə keçdiyi halda, Ə.Kərimli nəyə görə bu qədər narahatlıq keçirməyə çalışır? Hətta ermənilərin yalanlarını və dezinformasiyalarını təkrar edir! Misal üçün, AXCP sədri Naxçıvanın Günnüt kəndinin azad edilməsindən dərhal sonra hücum çəkir klaviaturaya və dərhal yazır: “Naxçıvanda guya (???!!!-R.N.) 11 min hektar torpaq sahəsinin Ermənistanın işğalından azad edilməsi haqda məlumat yalan idi. Bütün yalanlar kimi, bu da tez ifşa olundu. Məlum oldu ki, heç bir döyüşdən, torpaq azad etməkdən söhbət getmir”.

Beləliklə, əsgərlərimizin və zabitlərimizin öz həyatlarını təhlükəyə ataraq, göstərdikləri şücaətlərini qəhrəmanlıqlarını heçə endirməyə çalışan Ə.Kərimli adlı erməni muzdlusu hərbi nailiyyətimizi “iqtidarın şousu” adlandıraraq, öz erməniçilik xislətini ortaya qoymuş olur. Hətta həyasızcasına, arsızcasına erməni dəyirmanına su tökən təxribatçı sualını “işə salır”: “25 il ərzində bizə aid olan torpaqlar nəyə görə postları irəli çəkməklə nəzarətə götürülmürdü?”

Halbuki Ə.Kərimli adi və çox elementar bir reallığı ya qanmır, ya da özünü qanmazlığa vurur. Belə ki, son dövrlərə bölgədə və cəbhədə hərbi-siyasi vəziyyət Azərbaycanın xeyrinə dəyişir və Ordumuz əlinə düşən hər bir məqamda bu amildən maksimum şəkildə istifadə edir, eləcə də, şəhid verməden və s. Yəni bunu anlamamaq, ən azından, gerizəkalılıq kimi başa düşülməlidir.

AXCP sədrini narahat edən də budur ki, o, xalqımızı ruhlandıran belə qələbələrin əldə edilməsində mövcud iqtidarın və xalqın hakimiyyətinin qətiyyətini həzm edə bilmir. Ermənilər qədər Ə.Kərimli də pəjmürdə olur!

Lakin Ə.Kərimli bir reallığı da dərk etməyə məhkumdur. O bilməlidir ki, Ali Baş Komandanımız, Cənab İlham Əliyev nəinki Qarabağımızın işğal altındakı torpaqlarımızı, eyni zamanda, dədə-baba yurdumuz olan Qərbi Azərbaycan torpaqlarımızı da qaytarılacağını dəfələrlə vurğulayıb. Görək, AXCP sədri onda - yəni əgər əldə edilən uğurlardan ağlını tam şəkildə itirməsə, nə edəcək?.. Hər halda, gözləməyə və onun kimi erməni muzdlusunun ağlının necə havaya uçmasını canlı-canlı görməyə dəyər!

# Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbində "Son zəng" tədbiri keçirilib







*Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbində 2017-2018-ci tədris ilinin başa çatması ilə əlaqədar "Son zəng" tədbiri keçirilib. Xidmətin mətbuat mərkəzindən "Səs" qəzetinə verilən məlumata istinadən, DSX Xüsusi Məktəbinin sıra meydanında təşkil olunan tədbir Azərbaycan Respublikasının dövlət himninin ifa olunması ilə başlayıb.*

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrik teleqramı şəxsi heyətə çatdırılıb. Tədbirdə çıxış edənlər ölkəmizdə gənclərin yüksək səviyyəli təhsil almaları, fiziki və mənəvi cəhətdən sağlam böyümələri, layiqli vətəndaş kimi tərbiyə olunmaları üçün böyük imkanların yaradıldığını, bu məsələlərin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin daim diqqət mərkəzində olduğunu bildirib. DSX Xüsusi Məktəbinin Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə yaradılmasını, birinci vitse-prezident Mehriban xanım Əliyevanın 2011-ci il oktyabrın 18-də və 2018-ci il martın 5-də məktəbdə təşkil olunan açılış mərasimlərində iştirak etməsini bu diqqətin real göstəricisi kimi dəyərləndirilib.

Əsas təyinatı kursantları Azərbaycan Respublikasının Prezidentinə, dövlətçiliyinə, xalqına sadiq və vətənpərvər ruhda tərbiyə etmək olan DSX Xüsusi Məktəbində yüksək səviyyəli tədris və təlim şəraitinin yaradıldığı xüsusi vurğulanıb.

DSX Xüsusi Məktəbini 2018-ci ildə bitirən kursantlara xüsusi döş nişanları və qiymətli hədiyyələr təqdim olunub. Məzunlar DSX Xüsusi Məktəbinin bayrağı ilə vidalaşmaq üçün bayrağın qarşısında təzim ediblər. Kursantlar təntənəli marşla tribunanın önündən keçdikdən sonra "Sərhədçi marşı"nı oxuyublar. "Son zəng" çalındıqdan sonra məzunlar əllərindəki göyərçinləri səmaya buraxıblar.

Sonra məzunlar DSX Xüsusi Məktəbinin "məzun simvolu" olan rəmzi nar ağacı üzərində "2018-ci ilin məzunları" yazılmış nar meyvəsinə adlarını və soyadları yazılmış siyahını sancıblar. Məzunlar məktəbin foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə tər qızılgüllər qoyub və xatirə şəkli çəkdiriblər. Tədbirdə Dövlət Sərhəd Xidməti rəisinin birinci müavini - Baş Qərargah rəisi general-leytenant Rəşad Sadiqov iştirak edib.

**ZÜMRÜD**



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Paşinyan kimin "uşağıdır": Qərbin, yoxsa Putinin?

Diqqətlə izləmişəm: nə oyundursa, Ermənistandakı komediyalı siyasi "inqilab" ssenarisinin kimə məxsus olması hələ də "sirri-xuda" olaraq qalır. Çox vaxt bu qənaətə gəlirəm ki, dünyanı axmaqlar idarə edirlər. Çünki Ermənistandakı bu qurama "inqilab"dan sonra hakimiyyət başına gətirilən (Bəli, məhz GƏTİRİLƏN!) Nikol Paşinyan, demək olar ki, gözləri ancaq kameralara zillənmiş həvəskar aktyorlar kimi, ora-bura baxıb, qərar verməklə məşğuldur. Açıqdan-açığa görünür ki, bu adam peşəkar siyasət və dövlət idarəçiliyi barədə bircə kəlmə də təsəvvürə sahib deyil. Bu barədə heç olmasa bir neçə işarə oxusaydı, hər halda əzbərçilik də olsa, onları tətbiq edərdi bir aylıq hakimiyyəti günlərində. N.Paşinyan kimin nəyinə gərək idi, kimin maraqlarına cavab verən fiqur idi ki, S.Sarkisyanın siyasi ölüm qərarını verənlər bu boyda Ermənistandan axtarıb-axtarıb ancaq bu adamı seçdilər?

Əgər Ermənistandakı yalançı inqilab şousu elə V.Putinin "əl işidirsə", onda bu, daha da pis. O boyda Moskva, yəni narazı ermənilərin gözündən düşən S.Sarkisyanı sakitcə, deyə-gülə hakimiyyətdən qovmaq üçün bu boyda yalançı həngaməmi qopardardı Yerevan küçələrində? Az qala ABŞ-dakı prezident seçkilərinə qədər əli uzanan Moskvanın, müti və daima Rusiya qarşısında quyruq bulayan Ermənistanda bu boyda həngamə açmasına nə ehtiyac vardı? Bəyəm, Putinin bir göz ağartması bəs etmirdi ki, S.Sarkisyanı başqa birisi ilə sakitcə əvəzləsinlər? Nədir, yoxsa erməni xalqı Rusiyaya asi olacaqdı? - Ömründə mümkün deyil!.

N.Paşinyan bu gün, artıq küçə psixologiyası ilə hakimiyyət idarəçiliyinin yol ayrıcında qalan çarəsiz və zavallı "qəhrəmandır". Bu saqqallı adam, sadəcə, küçə etirazlarını hakimiyyət dəhlizlərinə qədər gətirmək işini bacardı. Bu işdə onu mahir usta-filan adlandırmaq da gülünc olardı. Çünki Ermənistanda bu işi ondan qat-qat əla bacaracaq o qədər "inqilab aktyorları" var ki. Sadəcə, ona bu işdə həm S.Sarkisyanın erməniləri boğaza yığan amansız kriminal diktaturası, həm də onu dəstəkləyən, arxasında duran güclərin himayəsi kömək durdu. Ayağını hakimiyyət kandarından içəri qoyandan sonrakı dövr isə, bu adamlıq deyil.

S.Sarkisyandan cana yığılmış ermənilər üçün həmin günlərdə istənilən siyasi aktyor, əsl qəhrəman kimi görünürdü. Baxın, bu adam artıq bir aydan çoxdur ki, hakimiyyətdədir və dövlətin sükanını, sürücülük "pravasını" pulla alan həvəskar sürücülər kimi idarə edir.

İndi isə, məsələnin əsl mahiyyətinə gələk. Kimdir N.Paşinyanın əsl ssenaristi, kim onu narazı ermənilərin qabağına ötürüb, S.Sarkisyanı hakimiyyətdən tullamaq üçün kütlə dirijoru kimi küçələrə çıxarıb? Ermənistandakı bu yalançı inqilab görüntüsü kimə lazım idi - Putinə, yoxsa Qərbə?

Hamı yazır, hər şeyi deyir, amma bu suala heç kim konkret, beş-üç cümlə ilə cavab verə bilmir. Diqqət edin, ciddi siyasi çəkisi olan istənilən politoloq, Serj Sarkisyanın hələ hadisələrin ilk günlərindən gülüşlə qarşıladığı, ciddiyə almadığı, amma sonunda, məhz bu adamın əli ilə siyasi zibilliyə göndərildiyi bu komediyanı və ssenarinin əsas "qəhrəmanı" olan Nikol Paşinyanın xaç atasının kimliyini izah edə bilmir. Yenə deyirəm, hamı elə bir ağızdan iddia edir ki, erməni xalqı daha Serjikin bu diktator idarəçiliyinə dözmədi, guya küçələrə çıxan ermənilər, artıq Sarkisyanın diktator idarəçiliyini qeyrətlərinə sığışdırmadılar və sairə. Oldu inqilab və əhali kütlənin önündə kənd qəbiristanlığına ölü aparan molla kimi düşüb həvəslə Qarabağ klanının axırına çıxmaq istəyən N.Paşinyanın arxasınca düşüb başladı "etirazlara".

Ən azından, erməni xislətinə bələd olanlar əla bilirlər ki, bu xalqın genefonunda etiraz etmək, hüququnu qorumaq, şərəfi barədə fikirləşmək, ağasının üzünə ağ olmaq kimi cəhətlər qəti yoxdur. Hiyləgər erməni əla bilir ki, Rusiyanın üzünə ağ olmaq, Ermənistan üçün nəyə bərabərdir. Elə son günlər rusiyalı politoloqların da tez-tez Ermənistana yönəldilmiş hədə-qorxuları, "Biz olmasaq, Azərbaycan sizi anındaca məhv edər" tipli açıqlamalar səsləndirmələri, ermənilərin Rusiyanın üzünə ağ olmaları təqdirində, nə ilə üzləşəcəklərinə aydın işarədir. Bəs N.Paşinyan kimin uşağıdır, kimin maraqları üçün hakimiyyətə gətirilib? Sual da çətindir, elə cavabı da. Bu sualın cavabını ilin sonuna qədər biləcəyik. Çünki köhnə suallarla yeni ilə girmirlər. Yəqin belə də olacaq...

# İşğalçıların yeni bəhanəsi

## *Yaxud ermənilər aprel məğlubiyyətini niyə Manvel Qriqoryanın üstünə atırlar?*

***Azərbaycan Ordusunun 2016-cı ilin aprel zəfərinin ardınca, işğalçı Ermənistanın rəhbərliyi və hərbi dairələri müxtəlif bəhanələr gətirərək, hələ o vaxt aldıqları sarsıdıcı məğlubiyyət acısına min-bir cür don geyindirməyə çalışırdılar. Lakin ölkənin bir sıra hərbi ekspertləri və siyasi şərhçiləri də var idi ki, onlar ağır və sarsıdıcı məğlubiyyətin əsas səbəbini, haqlı olaraq, orduda mövcud olan korrupsiya ilə əlaqələndirirdilər. Serj Sarkisyan iqtidarının daxilində olan hərbi generalitetin əsas kontingentinin silahlı qüvvələrə aid olan hər şeyi talan etmələri, hətta əsgər yeməklərinə qədər mənimsəmələri, o cümlədən, silah-sursatı ələ keçirib öz anbarlarına yerləşdirmələri faktları yüzlərlə idi.***



Məhz N.Paşinyanın Sarkisyan rejimini devirməsindən sonra Ermənistanın milli təhlükəsizlik xidməti hərəkətə keçərək, orduda baş alıb-gedən korrupsiya hallarının qarşısını almağa cəhdlər göstərdilər ki, sonuncu həbs - Manvel Qriqoryan olayı buna sübutdur. Daha dəqiq desək, hazırda Ermənistan ictimaiyyəti, eləcə də, mətbuatı bu ölkəni 20 il idarə etmiş Qarabağ klanının əsas dayaqlarından biri, respublikaçı deputat Azərbaycan ərazilərinin işğalına başçılıq edən və çoxsaylı hərbi cinayətlər törədərək, ad çıxaran general, "Artsax qəhrəmanı" Manvel Qriqoryanın rüsvayçı sonu barədə danışır və yazır.

### Aram Sarkisyan: "1999-cu ilə qədər, yəni Horadiz istiqamətində öz dəstəsi ilə dayanan vaxtlarda Manvelin Eçmiədzində heç evi də yox idi"

Bu arada Ermənistan parlamentinin deputatı, Qarabağda xüsusi qəddarlığı ilə tanınmış digər bədnam "qəhrəman", 1999-cu ildə güllələnən səhra komandiri Vazgen Sarkisyanın qardaşı Aram Sarkisyan Manvel və onun kimi komandirləri Robert Koçaryanla Serj Sarkisyan cütlüyünün korladığını mətbuata açıqlamasında deyib. "Bu "korladılar" sözü nə deməkdir? Cavab verirəm. Bu adamları qeyri-məhdud qüdrət və əmlak sahibi etdilər. Əvəzində isə hakimiyyəti bütün üsullarla müdafiə etməyi xahiş etdilər. Və bu adamlar şirnikləndi"- Sarkisyan deyib. O, eyni zamanda, bildirib ki, 1999-cu ilə qədər, yəni Horadiz istiqamətində öz dəstəsi ilə dayanan vaxtlarda Manvelin Eçmiədzində heç evi də yox idi. 1999-cu il oktyabrın 27-dən (parlamentdə Vazgen Sarkisyanın və digərlərinin güllələnməsindən) sonra Robert Koçaryan onu Yerevana apardı, general-leytenant rütbəsi verdi, müdafiə nazirinin müavini təyin etdi və sərvətə qeyri-məhdud çıxış imkanı açdı.

SİTAT: "O da bu sınağa dözmədi. Söhbət təkcə Manveldən getmir. Yeri gəlmişkən, o, sərvətini hamının gözləri önünə sərirdi. Bəs gözə dəyməməyə üstünlük verəcək qədər "ağıllı" olan başqalarının nə qədər kapitalı var?"

### Yuri Manvelyan: "Əslində, hamı bu adamın hakimiyyətə necə gəldiyini bilirdi"

A.Sarkisyan, həmçinin, bildirib ki, 2016-cı ilin aprel döyüşləri zamanı "Yerkrapa" təşkilatından 5 minə qədər könüllü Qarabağa yola düşdü, onlara M.Qriqoryan rəhbərlik edirdi: "Aydındır ki, ona həmin adamlar üçün konservlər verə bilərdilər. Amma burası aydın deyil ki, nəyə görə o, həmin yardımı hərbi hissələrə verməyib, evində saxlayıb? Adam xərçəngdən və diabetdən əziyyət çəkir. Ağ ciyərinin yarısını kəsiblər. Kimya terapiyası qəbul edib. Qatılaşdırılmış süd onun nəyinə lazımdır? Hesab edirəm ki, cavab eynidir: onun yoluxduğu acgözlük, hərislik odub".

Erməni jurnalisti Yuri Manvelyan isə "Azadlıq" radiosunun "Exo Kavkaza" proqramına müsahibəsində M.Qriqoryanın Ermənistanda "məxməri inqilab" qalib gələn kimi üzv olduğu hakim partiyadan yaxasını kənara çəkdiyini xatırladıb: "O jurnalistlərə tez-tez deyirdi ki, mən Respublika Partiyasının üzvü deyiləm, Qarabağ qəhrəmanıyam, müharibə qəhrəmanıyam. Və əslində, hamı bu adamın hakimiyyətə necə gəldiyini bilirdi. Bəli, o, doğrudan da, Ermənistanın simvoludur, bu adam karyerasını müharibədə və müharibədən çıxandan sonra qurub. Və onun bütün sərvətlərinin, zənginliyinin başlanğıcı Qarabağda, müharibə gedən ərazilərdə törətdiyi qarətlərdən qaynaqlanır".

Jurnalistə görə, Manvelin həbsi Ermənistanda on illərdir hökm sürən mifi dağıdır. Hansı ki, bu mifə onu yaradanların özləri də inanmağa başlamışdı. Bu, Manvel və onun kimiləri olmadan Ermənistanın yaşamasının mümkün olmayacağı barədə mif idi: "İstənilən qəhrəmanın və istənilən kamuflyajın arxasında, hansı ki, həmin Serj Sarkisyan da həmişə kamuflyajın və Qarabağın arxasında gizlənirdi,-nələrə başa gəlib, bunu biz görmüşük və bilirik. Bəli, indi miflərin dağıdılması baş verir. Və bu adamlar, əslində, nə müharibədə faydalı olmayıblar, nə müharibədən sonra. Bu adamların bir hissəsi hələ də müharibə təhdidi ilə manipulyasiya edərək, hakimiyyətdə qalırlar. Bu baxımdan, çox yaxşı simvoldur ki, artıq belə adamlarsız və müharibə ilə alver etmədən keçinməyin mümkün olduğu görünür..."

### Ermənistan ordusu yalnız korrupsiya sarıdan deyil, eləcə də, nizamsız hərbi birləşmələri və hərbi təchizatı baxımından da Azərbaycana uduzmaqdadır

Beləliklə, M.Qriqoryanın həbsinin ardınca, hazırkı Ermənistan hakimiyyəti aprel müharibəsindəki məğlubiyyətin əsas hissəsini onun üzərinə atmağa çalışır. Lakin bir həqiqət də mövcuddur ki, aprel məğlubiyyətinin digər faktoru Azərbaycan Ordusunun gücü və qüdrəti sayəsində yaşanıb. Əgər belə olmasa idi, may ayının sonlarında Naxçıvanda əldə edilən hərbi uğur da baş verməzdi. Daha doğrusu, Ermənistan ordusu yalnız korrupsiya sarıdan deyil, eləcə də, nizamsız hərbi birləşmələri və hərbi təchizatı baxımından da Azərbaycana uduzmaqdadır. Ermənistan generalitetini isə daha ağır günlər gözləyir...

***Rövşən RƏSULOV***

# Erməniliyin və erməni faşizminin cinayətləri, ideologiyası və fəlsəfəsinin fundamental tədqiqi

***Yaşının ahıllıq və müdriklik çağında 81 yaşlı fəlsəfə üzrə fəlsəfə doktoru Əmirəli İsmayılovu fundamental bir əsər - "Erməni faşizmi və erməniliyin cinayətləri, ideologiyası və fəlsəfəsi" kimi 632 səhifəlik əsəri yazmağa vadar edən onun hədsiz vətənpərvərliyi və xalqına təmənnasız xidmətidir.***

Məlum olduğu kimi, ermənilər və ermənilik haqqında Azərbaycanda daha çox tarixçilər, qismən də politoloqlar müxtəlif aspektdən yazmışlar. Ancaq Ə.İsmayılov erməniliyin və erməni faşizminin - bir-birini tamamlayan, bəşəriyyət üçün ən təhlükəli olan bu hadisənin cinayətlərinin və ideologiyasının, ilk dəfə olaraq, hərtərəfli və sistemli fəlsəfi təhlilini vermişdir.

Ə.İsmayılov erməniliyin və erməni faşizminin daşıyıcılarının ideya və psixoloji əhval-ruhiyyəsini tənzimləyən, böyük kütləni canilərə və mütəşəkkil cinayətkar klana çevirən və öz ətrafında birləşdirən mürtəce bir ideologiya kimi, təkcə anti-humanist nəzəriyyə deyil, prinsip və qaydaları faşist praktikası olaraq reallaşan bəşəriyyət əleyhinə cinayət kimi ifşa etmişdir. Erməni cəmiyyətində faşizmin tarixən yaranma səbəbləri və məqsədyönlü xarakteri türklərə, azərbaycanlılara və digər xalqlara qarşı cinayətləri göstərilir.

Ermənilər haqqında müxtəlif dövrlərdə dünyanın görkəmli şəxsiyyətlərinin fikirləri, erməniliyin qeyri-insani mənəvi davranışlarının varlıq və şüur amilləri fəlsəfi təhlil süzgəcindən keçirilir. Kitabda:

* Ermənilərin mağara millətçiliyi, mənəviyyatsızlığı;

* Erməni kilsələrinin insanlıq əleyhinə fəaliyyətləri, öz xalqını cinayətlərə sürükləməsi;

* Erməni satqınlığı;

* Qaraçı-hay tayfaçılığı;

* Erməni terrorizminin cinayətkar mahiyyəti;

* Orqan ticarəti ilə məşğul olmaları;

* Ekoloji genosid törətmələri və s. tədqiq olunmuşdur.

Müəllif göstərir ki, erməniliyin mürtəce mahiyyəti ondadır ki, o, faşizm kimi alman və italyan faşizmindən daha əvvəl XIX əsr və XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda tarixən çoxsaylı genosid, soyqırımı aktlarında təzahür etmişdir. Erməni faşizminin ən təhlükəli və bəşəriyyət üçün ən qorxulu cəhətləri odur ki, o, cilddən-cildə girməyi bacarır, böyük dövlətlərə, xristian dünyasına arxalanaraq, bəşəriyyətdən özünün əsl vəhşi simasını gizlədə bilir. Erməniliyin aşağıdakı ən mürtəce ideya silahı müəllif tərəfindən fəlsəfi təhlil obyektinə çevrilmişdir. Bunlar:

* Tarixin saxtalaşdırılması;

* Dünya ictimai rəyini aldadaraq yalan məlumatların verilməsi;

* İnformasiya fırıldağına əl atılması;

* Xalqlara patoloji erməni xəstəliyi kimi nifrət edilməsi;

* Mənəvi və maddi-mədəni sərvətlərin, familiyaların oğurlanması;

* Özlərinin mənfur planlarını reallaşdırmaq üçün müxtəlif dövlətlərin dövlət və siyasi strukturlarına soxulmaları;

* Öz cinayətlərini qurbanlarının və qarşı tərəfin üzərinə yıxmaları;

* Xəyali "Böyük Ermənistan" ideyasının gerçəkləşməsi üçün ən vəhşi cinayətlərə, etnik təmizləmələrə, terrora, genosidə və soyqırımlara əl atmaları;

* Hədsiz-hüdudsuz lovğalanmaları.

Erməni yalanını ən böyük yalan sənəti və mənəvi kasadlıq hesab edən müəllif ermənilərin yalanla nəfəs aldıqlarını, həyatda və ictimai fikirdə erməni yalan virusunun dağıdıcı mahiyyətini ifşa edir. Ə.İsmayılov erməniliyin cinayətkarlığı və erməni faşizminin uzun müddətli yaşaması səbəbini Qərb və xristian dünyasının hakim dairələrinin, siyasətçilərinin onları himayə etməsində, dəstəkləməsində, yalanlarına şərik olmasında, onların müsəlman-türk xalqları tərəfindən sıxışdırılması fikrində olmalarında görür.

Bu baxımdan, Azərbaycan filosofunun erməni faşizminin alovlu müdafiəçisi Fransanın keçmiş prezidenti Nikolos Sarkoziyə məktubları maraq doğurur. Bu məktublarda erməni faşizminin və onların müdafiəçilərinin "əxlaqsızlığı", "erməni genosidi" haqqında hay yalanları, erməni faşizminin ayaq tutmasına imkan yaradan, erməniliyi həvəsləndirən siyasi qüvvələrin şərəfsizliyi kəskin tənqid atəşinə tutulur.

***Vahid Ömərov,***
***AMEA Qafqazşünaslıq İnstitutunun Gürcüstanşünaslıq şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru***

# Turqut Qəmbərlə Emin Milli təhqir edildi, Xədicə İsmayıl da hədəfə düşdü

## Emin Hüseynov: "Sənə demişəm ki, ağzını cıraram!"

***Son günlər ölkədə fəaliyyət göstərən dağıdıcı müxalifətlə Avropadakı müxalifət arasında sosial şəbəkələr vasitəsilə kəskin savaşlar, təhqir və təhdidlər baş alıb getməkdədir. Buna səbəb kimi isə xəyanətlər, satqınçılıqlar və səmimiyyətsiz davranışlar göstərilməkdədir. Xüsusilə, "Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu"nun ("RATİ") rəhbəri, hazırda İsveçrədə yaşayan Emin Hüseynov iki gündür sosial şəbəkədə səs-küy yaradan videolarla çıxış edir, qarşısına çıxan digər müxalifətçiləri ən ağır ifadələrlə təhqirlərə məruz qoyur.***



### "Əli Kərimlini, Cəmil Həsənlini nədəsə ittiham edirsən, özün bunun yüz qatını edirsən"

Mətbuatdan da göründüyü kimi, hazırda həbsdə olan qardaşı Mehman Hüseynovun "Facebook" hesabından canlı yayım gerçəkləşdirən E.Hüseynov öncə "NİDA" hərəkatının üzvlərindən olan, Müsavat partiyasının sabiq başqanı İsa Qəmbərin oğlu Turqut Qəmbər barədə sərt fikirlər və təhqiramiz sözlər işlədib. O, buna səbəb olaraq, T.Qəmbərin yalan danışdığını göstərib. Hətta T.Qəmbər atası İ.Qəmbərlə müqayisə edilərək, yalan danışmağı da ondan öyrəndiyi vurğulanıb. "RATİ"-nin sədri bildirib ki, xarici ölkələrdən birində T.Qəmbərlə görüşəndə ondan qardaşı Mehman Hüseynovu, onun ailəsini niyə axtarmadığını, ümumiyyətlə, ailəsi ilə maraqlanmadığını soruşub. T.Qəmbər isə, öz növbəsində, dostları ilə birgə onun valideynlərinə baş çəkəndə anasının "Mehmanı siz tutdurmusunuz" ittihamı ilə üzləşdiklərini deyib. E.Hüseynov isə bu məsələni araşdırdığını, anasının belə bir ifadə işlətmədiyini, ümumiyyətlə, T.Qəmbərin onların evinə getmədiyini, yalan danışdığını iddia edib. Nəticədə, "RATİ" sədri E.Hüseynov başda T.Qəmbər və "NİDA" hərəkatı olmaqla, qarşı tərəfi ən ağır ifadələrlə söyüb.

Lakin sözügedən məsələnin digər maraqlı məqamı da budur ki, hadisələr cərəyan edəndən bir neçə saat sonra "Meydan" TV-nin rəhbəri Emin Milli də söyüş episentrinə düşərək, adaşı E.Hüseynovun təhqir atəşlərinə tuş gəlib.

Belə ki, "Emin Milli bu gün Almaniyada oturub, İsveçrədə oturan Emin Hüseynovu psixi pozuntularda, qeyri-adekvat hərəkətlərdə ittiham edir"-deyə qeyd edən E.Hüseynov qarşı tərəfin bunu deməyə hüququnun olduğunu desə də, sonrakı ifadələrlə daha ağır sözlərə rəvac verib: "Emin Milli, sən həkim deyilsən. Hansı adamlardan eşitmisən, mənim barəmdə? Dünən canlı yayımda jurnalist sənə sual versə də, ustalıqla suallardan yayınırsan. Əli Kərimlini, Cəmil Həsənlini nədəsə ittiham edirsən, özün bunun yüz qatını edirsən. Mən demişəm ki, sənin ağzını cıraram. Mənim xasiyyətimə bələdsən. Nə özümdən güclüyə, nə də zəifə zor tətbiq etmişəm. Bu, kritik ifadədir. Bunun məcazi mənasını başa düşməmisən".

### "Meydan" TV Emin Millinin məhsulu deyil...Bu, sırf maliyyə axını ilə bağlı məsələdir"

Bu kimi ağır və təhqirli ifadələrdən sonra da susmayan E.Hüseynov çıxış elədiyi canlı videosunda deyib ki, ümumiyyətlə, E.Milli də T.Qəmbər və digərləri qədər yalançıdır və o, daha ağır söyüşlərə layiqdir. "Mən bütün Azərbaycan xalqına sübut edə bilərəm ki, E.Milli təpəsindən-dırnağına qədər hiyləgər və yalançıdır"-deyən E.Hüseynov digər aspektlərdən də qarşı tərəfi ittihamlara məruz qoyub. Misal üçün o, "Meydan" TV-nin heç də E.Millinin məhsulu olmadığını deyib: "Bu televiziya Eminsiz də yarana bilərdi. Hamını sıradan çıxaranda ayaqüstə qala bilən bir onlayn media qurumu olduğu üçün irəliləyişlər edə bilirsiz. Bu, sırf maliyyə axını ilə bağlı məsələdir. Bu, Eminin ağıl və dərrakəsinə görə deyil. Əvvəl maliyyəni 10-15 müstəqil mediaya verəndən sonra Eminə verdilər. Onun bəxti gətirdi ki, "Meydan" TV-ni Berlində qurdu".

### "Siz strauslarsız, başınızı quma soxub, Emin Hüseynov barədə gic-gic danışırsız, intriqalar yayırsız"

"RATİ" sədri, eyni zamanda, E.Millinin çirkli təklifləri, ürəkbulandırıcı iş birlikləri barədə də məlumatlı olduğunu deyib. O, Avropada yaşayan bəzi mühacirlər barədə isə ad çəkmədən deyib ki, "siz strauslarsız, başınızı quma soxub, Emin Hüseynov barədə gic-gic danışırsız, intriqalar yayırsız". E.Hüseynovu qəzəbləndirən əsas nüans isə onun guya ki, qardaşı Mehmanla yola getməməsi barədə söz-söhbət yayılması olub. O, bu söhbətlərin yayılmasında da E.Millinin canfəşanlıq göstərdiyini iddia edib".

### "Xədicə İsmayıl, Emin Milli, gəlin, canlı yayıma çıxaq. Kimin nə xəyanət etdiyini deyəcəm"

E.Hüseynovun növbəti hədəflərindən biri də Xədicə İsmayıldır ki, o, bu "xanımı" da xəyanətdə suçlayıb: "İctimai sektordakı bəzi şəxslər barədə faktları canlı yayım vasitəsilə açıqlayacağam. Xədicə İsmayılın xəyanətkar olduğunu Emin Milliyə demişəm... Xədicə İsmayıl, Emin Milli, gəlin, canlı yayıma çıxaq. Kimin nə xəyanət etdiyini deyəcəm. Emin və Xədicə, siz Vaşinqtona, Londona yazırsız ki, Emin qeyri-adekvatdır, qrant yeyəndir. Sonra yazırsız ki, Eminin psixoloji problemləri var. Sözünüz hamısı boş çıxıb. Dediklərimi faktlarla təkzib edə bilmirlər, deyirlər, Emin dəlidir, başqaları ilə yola getmirlər".

E.Hüseynov tərəfləri dəfələrlə canlı yayımda debata dəvət etdiyini desə də, onların bu dəvətdən qaçdıqlarını, bununla da, xəyanətkar olduqlarını etiraf etdiklərini bildirib. Beləliklə, fakt budur ki, artıq dağıdıcı düşərgənin bütün cinahlarında kəskin savaşlara start verilib və bu amil bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, artıq hər şey göz önündədir - müxalifət ömrünün son akkordlarını qarşılıqlı təhqirlərlə başa vurmaqdadır.

**Rövşən RƏSULOV**



# Manvel Qriqoryanın qohumu da həbs edildi

Birinci Qarabağ müharibəsi dövründə Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarının işğalında, silahsız əhalinin qətlində və torpaqların talan edilməsində xüsusi canfəşanlıq göstərərək, erməni xalqının "qəhrəmanı" elan olunan, Robert Köçəryan və Serj Sarkisyan hakimiyyətləri dövründə Qarabağ klanının aparıcı üzvlərindən sayılan, iyulun 19-da isə qanunsuz külli miqdarda silah əldə etmə, saxlama, eləcə də korrupsiyaya görə həbs edilən general Manvel Qriqoryanın daha bir qohumu saxlanılıb. SİA xəbər verir ki, bu haqda news.am saytına Ermənistanın hüquq-mühafizə orqanlarından məlumat verilib. Həlelik həmin şəxsin kimliyi barədə informasiya verilməyib.

Xatırladaq ki, erməni generalının oğlu, Eçmiədzinin meri Yuri Manvelyan atasının həbsindən sonra vəzifəsindən istefa verib, vəkili isə M.Qriqoryana xidmət göstərməkdən imtina edib.



**Təhmasib Novruzov**

# Ac toyuğun darı yuxusu

***Hakimiyyətə gəlməyin müasir və sivil dünyada bir yolu var ki, o da seçkilər yoludu. Amma hakimiyyətə gəlməyin başqa yolu da var: inqilab və çevriliş yolu. Bunun üçün isə inqilabi şərait yetişməlidir. Nə zaman yetişir bu şərait. Kimsə nə vaxt istəsə kənar qüvvələrin dəstəyi ilə inqilab edə bilərmi? İnqilabi şəraitin yetişməsi necə analiz edilir?***

Tarixi hadisələri diqqətlə öyrənəndə və dünya tərəfindən qəbul edilən dahi siyasətçi-filosofların fikirləri ilə tanış olanda, bu suala cavab tapılır və anlayırsan ki, bunu anlamaq üçün böyük siyasətçi olmaq lazım deyil. Belə ki, tarixdə baş vermiş bütün inqilabların mahiyyətini öyrənib, görürsən ki, inqilab o zaman baş verir ki, cəmiyyəti idarə edənlərlə idarə olunanlar arasında antoqanist, yeni barışmaz bir ixtilaf var. Spartakın rəhbərliyi ilə baş verən qulların üsyanından tutmuş, ta ermənilərin son inqilabına qədər bütün çevrilişlər, məhz belə şəraitdə baş vermişdir. Elə dahilərin inqilabi şərait haqqında fikirləri də, ümumilikdə, bu mənanı kəsb edir: Aşağıların köhnə qayda ilə idarə olunmaq istəməməsi, yuxarıların yeni qayda ilə idarə edə bilməməsi inqilabi şərait üçün əsas səbəb rolunu oynayır! Hesab edirəm ki, inqilabın baş verməsi üçün şəraitin mahiyyəti istəkli oxuculara aydın oldu.

Bir vaxtlar Ukraynada, sonra Gürcüstanda baş verən rəngli inqilablardan cuşə gələn bizim əzəli və əbədi müxalifətimiz, indi də can-ciyərləri ermənilərin inqilabından əməlli-başlı həvəsə düşüblər (Gör nə günə qalıblar ki, düşmən millətin yolunu etalon seçirlər!..). Sosial şəbəkələrdə yenə başlayıblar inqilabdan (İnqilab küçəsindən və ya İnqilab kişidən yox e... lap elə əməlli-başlı çevrilişdən) gubbuldatmağa. Vallah, bunlar ya dəlidilər, ya da xarici pullar bunları elə karıxdırıb ki, dediklərinin, danışdıqlarının mahiyyətinə belə varmırlar. Yuxarıda inqilabi şərait haqqında ona görə yazıb, vaxt apardım ki, bəlkə özlərini siyasətçi hesab edən bu zatlar oxuyub, düşünələr ki, məmləkətdə inqilabi şərait varmı? Müasir dünyanın ən sivil demokratik idarəetmə prinsipləri əsasında idarə edilən ölkədə, aşağılar hansı daha sivil idarəetmə istəyəcəklər ki, yuxarılar bunu istəməsin və inqilabi şərait yaransın? Bu gün dünyanın çoxsaylı inkişaf etmiş ölkələri var ki, onlar Azərbaycanın idarəetmə üsulunu öyrənmək və onu öz ölkələrində tətbiq etmək cəhdlərində bulunurlar. Yəni iyirmi beş il ərzində hansı ölkə Azərbaycan qədər sürətlə bütün sahələrdə inkişaf edə bilib? Ərazisinə və əhalisinin sayına görə kiçik bir ölkənin bu gün təkcə regionda deyil, dünyada söz sahibinə çevrilməsinin əsas amili, məhz indiki idarəetmənin olduğunu yaxşı anlayan bir millət, necə narazı ola bilər bu idarəetmədən? Bu, məsələnin bir tərəfi. İkincisi, yerləşdiyimiz məkanın dörd tərəfi od içində yandığı və qüdrətli hesab olunan dövlətlərin bu alovu söndürməyə gecü yetmədiyi indiki zamanda, ən qatı terrorçu millətlə müharibə şəraitində olmasına baxmayaraq, bütün terror şəbəkələrindən məmləkəti qorumağı və dinclik, stabillik şəraitinin hökm sürməsini təmin etməyi reallaşdıran bir idarəetmədən millət niyə narazı olmalıdır? Nəhayət, cəmi bir-iki ay öncə keçirilən, dünyanın müşayəti ilə reallaşan seçkilərdə mütləq səs çoxluğu ilə qələbə qazanan bu iqtidara xalqın verdiyi dəstək, bu millətin indiki idarəetmədən razılığının ən bariz göstəricisi deyilmi? Söz yox, dünyada elə bir iqtidar yoxdur ki, əhalinin yüz faiz ondan razı qalsın. Bizdə də narazı qalanlar var. Vəzifə həsrəti ilə alışıbyananlar, vəzifəsindən sui-istifadə etdiyinə görə kənara tullananlar və onların yaxın ətrafı, bir də xaricdən və ölkənin hakimiyyətinə təsir rıçağı kimi ortaya atılaraq, özünü müxalifət adlandıranlar... Vəssalam! Bunların da ümumi sayı cəmi ölkə vətəndaşlarının üç-beş faizini təşkil edə bilər. Belədə inqilab etmək niyyətinə düşən bu beş-üç faiz, qalan doxsan-doxsan beş faizlə üz-üzə gəlməlidir və deməli, məğlubiyyət qaçılmazdır. Xülasə, indiki dostları Rəsul Quliyevin təbirincə desək, bu "Badbaxtlar" hələ anlamırlar ki, onların yuxularında gördükləri darı Amerika darısıdır, ucları kəsilib ki, səpəndə cücərməsin...

# “Müxalifət bu gün ayrı-ayrı qütblərə bağlıdır”

## Mais Səfərli: “Emin Milli ilə Qənimət Zahid arasında qarşıdurmanı Arif Hacılı ilə Əli Kərimli qızışdırır”

***- Mais bəy, son vaxtlar Emin Milli ilə Qənimət Zahid arasında söz atışması təhqir müstəvisinə keçib. Bunu həm də Müsavat -AXCP çəkişməsi kimi də qiymətləndirmək olarmı?***

- Hər zaman Müsavatla AXCP arasında konfliktlər olub. Hətta bu konfliktlər dərin ziddiyyətlərə əsaslanır və bu ziddiyyətlər çox dərin olduğuna görə, adları çəkilən partiyalar heç vaxt bir yerdə ola bilməyiblər. Yəni bu vaxta qədər müxalifət tərəfindən bir çox qurumlar, birliklər yaradılsa da, həmin qurumların ömrü çox olmayıb. Bir sözlə, müxalifətin yaratdığı həmin qurumların və birliklərin uzunömürlü olmamaları, normal fəaliyyət göstərməmələrinin səbəbi, məhz müxalifət partiya sədrlərinin şəxsi ambisiyalarının olması



*Müsahibimiz “Yurddaş” Partiyasının sədri Mais Səfərlidir*

ilə bağlıdır. Çünki müxalifət partiya sədrlərinin bir-birinə qarşı barışmaz nifrətləri var. Bu nifrət də zaman-zaman özünü göstərir. Yəni Emin Milli ilə Qənimət Zahid arasında gedən söz atışmasının təhqir müstəvisinə keçməsi də ordan qaynaqlanır. Əslində isə, E.Milli ilə Q.Zahid arasında qarşıdurmanı Arif Hacılı ilə Əli Kərimli qızışdırır.

***- Sizcə, müsavatçılarla cəbhəçilər arasında çəkişmələr hansı maraqlar uğrunda gedir?***

- Adları çəkilənlər bir-birlərinə o məsələlərdə güzəştə getməyiblər ki, kim birincidir və kim birinci olacaq. Yəni müxalifət partiya sədrləri daxilində birincilik uğrunda hər zaman ciddi savaş və amansız mübarizə gedir. Ümumiyyətlə, müxalifətin xalqımız tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Bu gün müxalifət tərəfindən səslənən şüarlar isə, artıq bizim Cənab Prezidentimiz tərəfindən 15 il bundan əvvəl yerinə yetirilib. Sadəcə olaraq, müxalifət bu gün özü də bilmir ki, nə edir. Sadəcə, varlıqlarını nümayiş etdirmək üçün arabir hay-küy salıb, boş və mənasız açıqlamalar verirlər. Birmənalı şəkildə, demək olar ki, müxalifət bu gün ayrı-ayrı qütblərə bağlıdır. Yəni müxalif partiya sədrlərinin hər birinin xaricdə arxasında dayanan xozeyinləri var. Digər tərəfdən də, bir-biri ilə açıq şəkildə savaş aparırlar ki, birinci olsunlar və xaricdə olan havadarlarından daha çox pul ala bilsinlər. Bu da onların zəifliyinin göstəricisidir. Qısaca desək, dağıdıcı ünsürlər bir-birlərinə ancaq nifrət edirlər.

***- Müxalifət bir-birinə qarşı mübarizə apardığı kimi, həm də Azərbaycanın uğurlarını gözdən salmağa da cəhdlər göstərir. Məsələn, Azərbaycan Ordusunun 11 min hektar ərazini işğaldan azad etməsini müxalifət həzm edə bilmir. Bunun səbəbi nədir?***

- Müxalifət yatıb özünü yuxuda hakimiyyətə gələn görür. Ancaq bu, reallıqdır ki, onların yatıb yuxuda gördükləri elə yuxu olaraq da qalacaqdır. Müxalifətin hakimiyyətə gəlmək şansları sıfıra bərabərdir. Çünki xalq tərəfindən müxalifətin heç bir dəstəyi yoxdur. Demək olar ki, bu gün müxalifətin işi ancaq ağa qara deməkdən və qaraya ağ deməkdən ibarətdir. Ona görə də, müxalifət Azərbaycan dövlətinin uğurlarına paxıllıq edir və bu uğurlara kölgə salmaq istəyirlər. Paxıllıq, qısqanclıq hissi onlara imkan vermir ki, bizim uğurlarımıza, inkişafımıza sevinsinlər. Amma heç vaxt müxalifət təmsilçilərinin ölkəmizlə bağlı məkrli planları baş tutmayıb və tutmayacaqdır.

**GÜLYANƏ**

# Bakcell sosial mediada cavablandırılmış müraciətlərə görə ən yüksək nəticə göstərdi




Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti dəfə nüfuzlu beynəlxalq “Socially Devoted” sertifikatı ilə təltif olunub. Xüsusi analitik platforma vasitəsilə dünya üzrə məşhur şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqi ilə məşğul olan tanınmış “Socialbakers” şirkəti Azərbaycandakı şirkətlərin “Facebook” şəbəkəsində 2018-ci ilin I-ci rübü üzrə fəaliyyətlərini nəzərdən keçirib. Həmin monitorinqin nəticələrinə əsasən, Bakcell şirkəti 2018-ci ilin yanvar ayından mart ayına qədər olan müddət ərzində özünün rəsmi “Facebook” səhifəsinə daxil olmuş müraciətlərin 100%-ni cavablandırıb. Qeyd edək ki 2017-ci ildə “Bakcell” dörd dəfə abunəçi sorğularının cavablandırılması üzrə “Socially Devoted” sertifikatına layiq görülüb. “Bakcell”in “Facebook” səhifəsinin 400 mindən artıq istifadəçisinin olması bu nailiyyəti daha da vacib və təqdirəlayiq edir.

Sosial media vasitələri məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından “Bakcell”in vacib kommunikasiya vasitələrindən biridir. Şirkətin bir çox populyar sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir. Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti “Bakcell”in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Şirkətin müştəri məmnuniyyəti strategiyası dünyanın aparıcı şirkətləri və əhalinin bütün təbəqələrinin tələb və ehtiyaclarının nəzərə alınması ilə yanaşı yerli bazarın tələblərinə əsaslanır. Bakcell abunəçiləri şirkətin həftənin 7 günü, günün 24 saatı ərzində abunəçilərə yüksək keyfiyyətli xidmət göstərən “555” Məlumat Mərkəzinə və ya sorğuların rekord həddə 100% cavablandırılmasını təmin edən “Facebook” səhifəsinə müraciət edə bilərlər.

# “Nar” 700 bal toplamış abituriyentləri mükafatlandıracaq

***“Nar” 2018-ci ildə də ali məktəblərə qəbul imtahanları zamanı ən yüksək nəticə göstərərək 700 bal toplamış abituriyentləri xüsusi hədiyyələrlə mükafatlandırmaq niyyətindədir. Belə ki, Azərbaycanın müxtəlif bölgələrini təmsil edən ilin ən uğurlu abituriyentlərinə “Nar” operatoru adından dəyərli hədiyyələr təqdim ediləcək.***

Bu məqsədlə, son qəbul imtahanlarının nəticələri açıqlandıqdan sonra xüsusi bir tədbirin keçirilməsi nəzərdə tutulub. Qeyd edək ki, ötən il də 700 bal toplamış 15 tələbəni təntənəli surətdə mükafatlandıran mobil operator artıq bu aksiyanı bir ənənə halına gətirib.

Təhsil “Nar” operatorunun KSM strategiyasının ən vacib istiqamətlərindən biridir. Gənclərdə oxumaq həvəsi oyatmaq, layiqli təhsil almaları üçün onlarda motivasiya yaratmaq mobil operatorun ən ümdə məqsədlərindən biridir. Belə stimullaşdırıcı proqramlardan biri də Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində həyata keçirilir. Belə ki, mobil operator universitetdə ən müasir avadanlıqlarla təchiz edilmiş “Nar” GSM laboratoriyası yaratıb, semestr ərzində Radiotexnika və rabitə fakültəsinin ən yaxşı nəticə göstərmiş tələbələrini mütəmadi olaraq xüsusi hədiyyələrə layiq görüb. Təhsil və maarifləmənin inkişafına xüsusi önəm verən “Nar” bu kimi təşəbbüslərlə tələbələrə dərslərində daha uğurlu olmaları üçün əlavə stimul verməyə çalışır.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə müstəqil beynəlxalq şirkət olan “P3 Communications” tərəfindən keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən “Nar” şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olmuşdur. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## On beşinci əsrdə tərtib olunmuş lüğət Azərbaycana gətirilib

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Əlyazmalar İnstitutu direktorunun müavini, filologiya elmləri doktoru Paşa Kərimov Tehranın Məclis Kitabxanasından “Lüğəte-Nemətullah” əsərinin surətini əldə edib. İnstitutdan AZƏRTAC-a bildirilib ki, XVI əsrdə yaşamış Nemətulla ibn Əhməd ibn Mübarək ər-Rumi Sofiyada dünyaya gəlib. 1539-cu ildə yazılmış “Lüğəte-Nemətullah” farsca-türkcə lüğət olmaqla yanaşı, fars dilinin qrammatikasına dair əsərdir. Əsərin əlyazma nüsxələri London və Paris kitabxanalarında, Sankt-Peterburq Şərqşünaslıq İnstitutunun şərq əlyazmaları şöbəsində, eləcə də Əlyazmalar İnstitutunda saxlanılır.

# Azərbaycan Konstitusiyası və Ulu Öndər Heydər Əliyev

***Konstitusiya dövlətin əsas qanunudur. "Konstitusiya" sözü latın dilində olan "konstitutio" sözündən götürülmüş və "quruluş", "təsisat" mənasını verir. Ali hüquqi qüvvəyə malik əsas qanun olan konstitusiya dövlətin siyasi quruluşunu, dövlət orqanları sistemini və onların yaradılması qaydalarını və funksiyalarını, habelə, vətəndaşların əsas hüquq və vəzifələrini müəyyən edir.***

Dövlətin əsas qanunu kimi konstitusiyanın məzmunu cari qanunvericilik aktlarından fərqlənir. Konstitusiyada cəmiyyətin uzun müddət üçün nəzərdə tutulmuş ən davamlı ictimai münasibətləri və əsas prinsipial müddəaları əks olunur. Konstitusiya əsasında dövlətin digər qanunları və hüquqi aktları hazırlanır və təkmilləşdirilir. Həmin aktlar, adətən, konstitusiyada nəzərdə tutulur və onlarda çox vaxt konstitusiyanın ayrı-ayrı müddəalarının məzmunu açılır və konkretləşdirilir. Konstitusiyanın prinsiplərinə və müddəalarına uyğun olmayan hər hansı hüquqi aktlar qeyri-qanuni hesab edilir və ləğv olunmağa məhkumdur.

İftixar hissi ilə qeyd etmək olar ki, Şərqdə respublika tipli demokratik dövlətin ilk konstitusiyası Şimali Azərbaycanda qəbul edilmişdir. Məlum olduğu kimi, "Azərbaycan xalqı dövlət müstəqilliyini əsrimizin əvvəllərində əldə edə bildi. Qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi nəticəsində itirmiş olduğu dövlət müstəqilliyini bərpa etmək üçün gərgin mübarizə aparmalı olmuş və bir çox çətinliklərlə üzləşmişdir. Yalnız 1918-ci il mayın 28-də Azərbaycn Demokratik Respublikasının yaranması ilə Şimali Azərbaycan ilk dövlət müstəqilliyini qazana bilmişdir. Lakin "Şərqdə ilk demokratik dövlət" olan Azərbaycan Demokratik Respublikası az müddət yaşaya bildi və öz konstitusiyasını qəbul edə bilmədi. O dövrdə "baş vermiş ictimai-siyasi dəyişikliklər nəticəsində Azərbaycan xalqı milli azadlıqdan, dövlət müstəqilliyindən məhrum oldu." Azərbaycan Demokratik Respublikası Azərbaycan Sovet Sosialist Respublikası ilə əvəz olundu. Azərbaycan SSR-i, müəyyən mənada, Azərbaycan Demokratik Respublikasının varisi hesab etmək olar, çünki onun zəminində yaranmışdı. Siyasi hakimiyyət dəyişsə də, Azərbaycan SSR ilk dövrlərdə rəsmi olaraq xalqımızın milli dövləti hesab edilirdi. 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında Azərbaycan SSR-in Konstitusiyası qəbul edildi. Bu, Azərbaycanın ilk Konstitusiyası idi. Azərbaycan SSR-in ilk Konstitusiyası bütün Şərqdə, türk dünyasında ilk Konstitusiya olmuşdur. Təəssüf ki, "dünya sosialist inqilabının qələbəsi uğrunda mübarizə" şüarı ilə çıxış edən Rusiyanın kommunist rəhbərlərinin siyasəti nəticəsində 1922-ci ildə Azərbaycan SSR-in Sovet İttifaqının tərkibinə daxil edilməsilə əlaqədar onun konstitusiyası artıq müstəqil dövlətin konstitusiyası əhəmiyyətini itirib, Sovet İttifaqı kimi bir fövqəldövlətin geniş daxili özünüidarəetmə hüquqlarına malik olan milli-inzibati ərazisinin əsas qanunlarına çevrildi. Bununla əlaqədar 1925, 1927, 1931, 1935-ci illərdə onun konstitusiyasında dəyişikliklər edildi. 1937-ci il martın 14-də Fövqəladə IX Ümumazərbaycan Sovetlər Qurultayında Azərbaycan SSR-in II Konstitusiyası, 1978-ci il aprelin 21-də Azərbaycan SSR Ali Sovetin sessiyasında Azərbaycan SSR-in III Konstitusiyası qəbul edildi. Yuxarıda qeyd edildiyi kimi, bu konstitusiyaları da müstəqil dövlətin konstitusiyası hesab etmək olmaz.

"1991-ci ildə Sovetlər İttifaqının dağılması ilə əlaqədar olaraq Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etmişdir. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasına Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etmiş, Konstitusiya Aktı 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi, referendum vasitəsilə bəyənilmişdir. Bu Aktla Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin olunması üçün hüquqi əsaslar yaranmış, ölkəmiz öz dövlət müstəqilliyini bütün dünyaya bəyan etmişdir." Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1997-ci ildə ABŞ səfəri zamanı, Çorctaun Universitetindəki nitqində demişdir ki, "öz müstəqilliyini elan etdikdən sonra Azərbaycan hüquqi prinsiplərə əsaslanan demokratik dövlət qurmaq qərarına gəlmişdir. Azərbaycanda demokratik, azad cəmiyyətin qurulması Azərbaycan dövlətinin əsas siyasəti və strateji məqsədidir."

Bu məqsədə nail olmaq üçün Azərbaycan Respublikasının Milli Məclisi ölkənin Prezidenti Heydər Əliyevin Sədrliyi altında Azərbaycan Respublikasının yeni Konstitusiyasının layihəsini hazırlayan komissiya yaratdı. 1995-ci il iyulun 5-də Azərbaycan Respublikasının Yeni Konstitusiya layihəsini hazırlayan komissiyasının ilk iclası oldu. Həmin iclasda Azərbaycan Respublikasının Prezidenti, Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın Sədri Heydər Əliyev nitq söylədi. Həmin nitqdə Azərbaycan Konstitusiyasının əsas prinsipləri və əsas müddəalarının qlobal problemləri öz şərhini tapdı. Bu nitq Yeni Konstitusiya layihəsinin əsas istiqamətlərini müəyyən etdi. Heydər Əliyevin bu nitqinin və konstitusiya layihəsinin sonrakı müzakirələrində çıxışlarının konstitusiya layihəsinin hazırlanması üçün böyük əhəmiyyəti olmuşdur. Heydər Əliyev deyirdi: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Milli kökləri nəzərə almaqla dünya xalqlarının təcrübəsindən öyrənməyi vurğulayan bu böyük şəxsiyyət öyrədirdi ki, "Konstitusiya yaratmaq üçün, şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən istifadə etməliyik, bəhrələnməliyik. Heydər Əliyevin Yeni Konstitusiya layihəsinin hazırlanması işindəki misilsiz xidmətləri belə bir nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan Respublikası Konstitusiyasının baş memarı Prezident Heydər Əliyev olmuşdur. Azərbaycan Respublikasının Yeni Konstitusiyasının layihəsi ümumxalq müzakirəsinə verildi. Yeni konstitusiyanın layihəsi ayrı-ayrı kollektivlərdən tutmuş Milli Məclisə qədər bütün mərhələlərdə xalqın fəal iştirakı ilə geniş müzakirə olundu. Məhz buna görə də, Prezident Heydər Əliyev fəxrlə deyir ki, "bizim konstitusiyamız xalqın konstitusiyasıdır, hər bir vətəndaşın konstitusiyasıdır". Yeni Konstitusiya layihəsinin müzakirəsinə yekun vuraraq, Heydər Əliyev qeyd etmişdir ki, "indi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk Konstitusiyasını qəbul edirik. Bu, çox məsuliyyətli, çox şərəfli bir vəzifədir. Bu, bizə nəsib olubdur və güman edirəm ki, biz, yəni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik".

Həqiqətən də, Azərbaycan xalqı öz müdrik rəhbərinin başçılığı altında bu şərəfli vəzifəni yerinə yetirdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sədrliyi ilə Azərbaycan Respublikasının Yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının Konstitusiyası" 1995-ci il noyabrın 12-də keçirilib Azərbaycan Respublikası referendumunda qəbul olundu və 1995-ci noyabrın 27-dən qüvvəyə mindi. Beləliklə, cəsarətlə deyə bilərik ki, Azərbaycan Respublikasının Konstitusiyası "demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə" irəliləyən bir respublikanın Konstitusiyası olmaqla ən demokratik yol ilə qəbul edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasını "səciyyələndirən əsas cəhətlər" "Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsidir".

Azərbaycan Respublikasının Konstitusiyası "Giriş", 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarətdir.

Beşiyinin başında Prezident Heydər Əliyevin durduğu Azərbaycan Respublikasının Konstitusiyasının girişində konstitusiyanın əsas prinsipləri Azərbaycan xalqının aşağıdakı niyyətləri kimi bəyan edilir: "Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq; konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək; vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq; xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi-dünyəvi dövlət qurmaq; ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək; ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək".

Konstitusiyada təsbit olunmuş Azərbaycan xalqının bu ülvi niyyətlərini şərh edən Prezident Heydər Əliyev demişdir ki, "Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir", bu müstəqillik "əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır".

Yeni Azərbaycan Partiyasının 5 illiyi münasibətilə 1997-ci il noyabrın 29-da "Respublika" Sarayında keçirilən təntənəli mərasimdə çıxış edən Prezident Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiyasının ülvi niyyətlərini xatırlayaraq, bir daha bəyan etdi ki, məqsədimiz "Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət qurmaqdır". Konstitusiyada öz ifadəsini tapmış Azərbaycan xalqının ülvi niyyətləri ilə əlaqədar olaraq xalqın böyük oğlu Heydər Əliyev demişdir ki, "Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik-hüquqi cəmiyyət qurmaq yoludur. Demokratik prinsiplər bu günümüzün və gələcəyimizin əsasını təşkil edəcəkdir.

Azərbaycan Respublikasının Konstitusiyasına görə dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır. Prezident Heydər Əliyevə görə, "xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır." Xalq öz hüquqlarını dərk etməli və onları qorumaq üçün mübarizə aparmağı bacarmalıdır. Heydər Əliyev deyir: "Əgər hər hansı bir ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar. Xalq öz hüquqları və vəzifələri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər. Xalqın bu hüququ Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan xalqının ümdə suverenlik hüququ sərbəst və müstəqil surətdə öz müstəqilliyini təyin etmək hüququdur. Azərbaycan xalqı bu hüquqdan istifadə edərək azadlıq və istiqlaliyyət əldə etmiş və öz müstəqil dövlətini yaratmışdır. Pezident Heydər Əliyevin dediyi kimi, "azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir".

Azərbaycanın dövlət müstəqilliyinin 5 illiyi münasibətilə 1996-cı il oktyabrın 18-də Prezident Heydər Əliyevin xalqa müraciətində deyilir: "Müstəqil Azərbaycan Respublikası ötən beş il ərzində böyük sınaqlardan keçmişdir. Müstəqilliyimizin möhkəmlənməsinə mane olan qüvvələr həm xaricdə, həm də daxildə mövcud olmuşdur. Bu illərdə Azərbaycan xalqının böyük itkiləri olmuş, eyni zamanda, ötən bu dövrdə Azərbaycan xalqının çox böyük nailiyyətləri vardır. Ən böyük nailiyyətimiz ondan ibarətdir ki, müstəqilliyi qoruyub-saxlamışıq və onu bu gün dönməz etmişik. Bu gün böyük iftixar hiss ilə deyə bilərik ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir". Çünki "Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin təminatıdır".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 21 iyun


## Yay gəlir...

Bu il yay fəsli Azərbaycana iyunun 21-i Bakı vaxtı ilə saat 14:07-də gələcək. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şamaxı Astrofizika Rəsədxanasından AZƏRTAC-a bildirilib ki, həmin vaxt yay Günəş qarşıdurması anı adlanır. Yaz fəsli Azərbaycana martın 20-si Bakı vaxtı ilə saat 20:15-də qədəm qoyub. Həmin vaxt yaz gecə-gündüz bərabərliyi adlanır. Payız sentyabrın 23-də Bakı vaxtı ilə saat 05:54-də (payız gecə-gündüz bərabərliyi), qış isə dekabrın 22-si saat 02:22-də (qış Günəş qarşıdurması anı) başlanacaq.



## Palçıq vulkanından hazırlanan kosmetik vasitələr dəri problemlərinin qarşısını alır

Təbii tərkibli kosmetik vasitələr digərlərindən baha olsa da, təsir effekti daha yüksəkdir. Lakin qadınlar tez nəticə əldə etmək üçün kimyəvi tərkibli kosmetik vasitələrə üstünlük verirlər. Mütəxəssislərin verdiyi məlumata əsasən, vulkan palçığı tərkibli məhsullar ən effektli təbii kosmetik vasitələr sayılır. Dünyada 800 palçıq vulkanından 300-dən çoxu Azərbaycanda yerləşir. Təcrübə göstərir ki, son vaxtlar palçıqdan hazırlanan kosmetik vasitələr krem və yağları da üstələyir. Palçıq vulkanından hazırlanan kosmetik vasitələrin tərkibi çoxlu minerallar və kalsium, sink, manqan, gümüş, molibden kimi mikroelementlərlə zəngindir. Həmin maddələr dəriyə müalicəvi təsir göstərərək qan dövranını yaxşılaşdırır, dəridə geniş məsamələr əmələ gələndə onların kiçilməsinə və azalmasına səbəb olur.



Vulkan palçığından hazırlanan həmin məhsullar müxtəlif dəri problemlərinin həllində istifadə edilir. Kosmetoloqların fikrincə, ev şəraitində həftədə iki dəfə 15 dəqiqə ərzində həmin tərkibli məhsullardan istifadə etməklə yüksək nəticəyə nail olmaq mümkündür. Həmin məhsullar dəridə olan quruluq, yağlılıq, qırış və aknelərin qarşısını alır. Üstəlik, həmin palçıq həm də hipoallergen olduğuna görə allergik səpgilərin sakitləşməsinə də faydalı təsir göstərir.

## Nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən şəxs saxlanılıb

İyunun 18-də Daxili İşlər Nazirliyinin (DİN) "102 - Zəng Mərkəzi" Xidmətinə müraciət edən Bakı şəhər sakini Stanislav Yakuşev saat 10 radələrində İzmir küçəsindəki evin qarşısından "Haojue" markalı motosikletinin qaçırıldığını bildirib.



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumatla əlaqədar Yasamal Rayon Polis İdarəsinin 27-ci polis bölməsinin əməkdaşları tərəfindən dərhal əməliyyat-axtarış tədbirlərinə başlanılıb. Nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən şəxs qısa müddətdə İnşaatçılar prospektində motosikletlə birgə saxlanılıb. Polis bölməsində aparılan araşdırmalarla onun Bakı şəhər sakini Müşfiq Həsənbəyli olduğu, həmin gecə Q.Şərq küçəsindəki evlərin birinin qarşısından Z.Quliyevə məxsus velosipedi oğurladığı da müəyyənləşib. Faktla bağlı Yasamal Rayon Polis İdarəsində araşdırma aparılır.

## Ronaldodan Avropada yeni rekord!

İyunun 20-də futbol üzrə XXI dünya çempionatının VII gününün ilk oyununda "B" qrupunda yer alan Portuqaliya və Mərakeş yığma komandaları qarşılaşıblar. AZƏRTAC xəbər verir ki, sürətli hücumlar şəraitində keçən oyunda Portuqaliya millisi minimal hesabla qalib gəlib. Oyunda yeganə qolu matçın 4-cü dəqiqəsində Kriştiano Ronaldo vurub. Portuqaliyalıların künc zərbəsindən sonra başlatdıqları hücumda rəqibin cərimə meydançasına hava ötürməsini başla dəqiq və qüvvətli zərbə ilə tamamlayan ulduz futbolçu cari mundialda dördüncü qolunu qapıdan keçirib. Komandaların səylərinə baxmayaraq, matçın qalan dəqiqələrində qapılara top vurulmayıb və Portuqaliya yığması minimal hesabla qalib gələrək səkkizdəbir finala yüksəlmək üçün vacib olan 3 xalı aktivinə yazdırıb.



Mərakeş yığması isə İrana məğlubiyyətdən (0:1) sonra ikinci görüşdə Portuqaliyaya uduzaraq səkkizdəbir finala yüksəlmək şansını itirib. Qeyd edək ki, bu matçda vurduğu qol Kriştiano Ronaldonun Avropada yeni rekord müəyyənləşdirməsinə səbəb olub. Belə ki, milli komandanın heyətində keçirdiyi 152 oyunda 85-ci qolunu vuran portuqaliyalı hücumçu bu göstərici üzrə macarıstanlı əfsanəvi futbolçu Ferents Puşkaşın rekordunu yeniləyib. Xatırladaq ki, F.Puşkaş 85 oyunda 84 dəfə fərqlənib.

## Güləşçilərimiz Avropa çempionatından 6 medalla qayıdır




Macarıstanın Györ şəhərində 2003-2004-cü il təvəllüdlü yeniyetmələr arasında Avropa çempionatı keçirilib. Azərbaycan Güləş Federasiyasından SİA-ya verilən məlumata görə, çempionatda iştirak edən kiçik yaşlı yeniyetmələrdən ibarət yığmamızın üzvləri 1 qızıl, 1 gümüş və 4 bürünc medal qazanıb. Yunan-Roma güləşçilərimiz 1 qızıl və 1 bürünc medal qazandığı halda, sərbəstlər 1 gümüş və 3 bürünc medala sahib olub. Yunan-Roma güləşi yarışlarında bütün rəqiblərindən üstün olan Elmir Əliyev (52 kq) qızıl medal və Avropa çempionu adını qazanıb. 68 kq-da mübarizə aparan Əli Əlizadə isə bürünc medala yiyələnib. Sərbəst güləşçilərin mübarizəsində yalnız final görüşündə uduzan Məmməd Əhmədov (57 kq) gümüş medalla kifayətlənib. Bürünc medalları isə yığmamıza Ceyhun Allahverdiyev (44 kq), Əkbər Vəliyev (48 kq) və Varis Mehdizadə (75 kq) qazandırıb. Görüşlərin idarə edilməsində ölkəmizi milli dərəcəli hakimlər Həbub Nurulu və Əli Babayev təmsil edib.

## Təmsilçilərimizin UEFA Avropa Liqasındakı rəqibləri bəlli olub

UEFA EUROPA LEAGUE

2018/2019-cu il mövsümündə ölkəmizi UEFA Avropa Liqasında təmsil edəcək klublarımızın rəqibləri müəyyənləşib. AZƏRTAC xəbər verir ki, mübarizəyə birinci təsnifat mərhələsindən başlayacaq təmsilçilərimizdən "Keşlə" Maltanın "Baltsan", "Qəbələ" Lüksemburqun "Proqres", "Neftçi" isə Macarıstanın "Uypeşt" komandası ilə qarşılaşacaq. Bu mərhələnin oyunları iyulun 12-də və iyulun 19-da keçiriləcək.

## "Futbolçu kimi Lioneli Kriştianudan güclü sayıram"

"Lionel Messi Kriştianu Ronaldonun İspaniyaya 3 qol vurmasından sonra təzyiq hiss edirdi". Apasport.az saytının məlumatına görə, bu sözləri italiyalı mütəxəssis Fabio Kapello deyib. Karyerası ərzində bir sıra uğurlara imza atan apenninli DÇ-2018-in startını dəyərləndirib: "Ronaldo nə isə möhtəşəm bir şey ortaya qoymaq istəyirdi. Axı bunadək dünya çempionatlarında çox qol vurmayıb. Argentina millisinin yarımmüdafiəsi İslandiya ilə görüşdə gülünc vəziyyətdə idi. Çox ləng davranır, daim mərkəzlə keçib, topu Messiyə ötürmək istəyirdilər. Futbolçu kimi Lioneli Kriştianudan güclü sayıram. Lakin ona yığmadakı komanda yoldaşları kömək etmirdilər".

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin II kurs 204-cü qrup tələbəsi Abbasova Xəyalə Əlixan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**